# XOCALIYA ƏDALƏT

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 44 (9211) 26 FEVRAL 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR


# Xocalının qisası döyüş meydanında alındı

## Müzəffər Ali Baş Komandan, rəşadətli ordu və əzmkar xalq bunu ləyaqətlə yerinə yetirdi




## Xocalı faciəsinin 25-ləri

"Uzun müddət idi ki, Xocalıda gün sakit keçmirdi, hər gün ermənilər atəş açırdılar. Ona görə də hər axşam növbəli şəkildə postda olurduq. Fevralın 25-dən 26-na keçən gecə postda mənim növbəm idi. Çox dəhşətli idi. Sakinlər meşəyə tərəf qaçırdılar, qarlı havada, minbir əzab-əziyyətlə... Üç günə Xocalıdan Ağdama gəlib çıxa bilmişdim. Əl-ayağım soyuqdan donduğu üçün xəstəxanada yatası oldum. Ailəmdən xəbərim yox idi, hərə bir yana dağılmışdı. Sonra ailəmi axtarsam da, tapa bilmədim. Deyilənlərə görə, həmin gecə evimiz bombalanıb. Bəlkə də ailəm evin içində yanıb külə dönüb. Amma elə dəhşətli hisslərdir ki, hər an gözüm yoldadır - bəlkə qayıdan, "Vidadi" deyib səsləyən olar", - deyə faciə şahidi bildirir.

→ 9

## Səadətini Xocalıda itirdi

Valeh qarşısında qəflətən peyda olan erməniyə ov tüfəngindən atəş açmaq istəsə də, içinə su dolmuş tüfəngdən atəş açılmır. Elə bu vaxt Səadətin qışqırığı eşidilir: "Gördüm başını qaldırıb üzümə baxır. Dedim nə olub? Cavab vermədi. Yaxınlaşdım ki, onu özümə tərəf qabağa çəkim, gördüm böyründən əlimə istilik gəldi. Qan idi. Ona güllə dəymişdi. Orada gözümün içinə baxa-baxa, danışmadan şəhid oldu Səadət. Ondan sonra çox adam gəldi keçdi, mənə nə qədər dedilər ki gedək, getmədim. İki yolum var idi, ya ölmək, ya da Səadətin meyitini oradan çıxarmaq. Onsuz da mən ölmüş bir insan idim".

Səadətsiz getmək istəməyən Valeh mühasirəyə düşənəcən orada qalır.

→ 8

**O gecə Xocalı cəhənnəm alovunun qıpqırmızı rənginə boyanmışdı...**
**Şəhərə göydən qar əvəzinə qan ələnmiş, çaylardan su əvəzinə qan axmışdı...**
**O gecə fəryadı asimana bülənd olan günahsız insanların harayına bir insan bəndəsi yetməmiş, Tanrı belə hay verməmişdi...**

Gözləri önündə balası süngüyə keçən ata-analar havalanmış, ata-anasının vəhşicəsinə öldürüldüyünə şahidlik edən balaların bağrı çatlamışdı...

O gecə canlarını götürərək ayaqyalın, başıaçıq soyuğu qılınc kimi kəsən qarlı düzlərlə, meşələrlə bu müsibətdən qaçmaq istəyən çarəsiz insanlara təbiət rəhm etsə də, qaniçən erməni cəlladları aman verməmişdi...

1992-ci il fevralın 25-dən 26-na keçən gecə idi...

Xocalı soyqırımının yaşandığı müdhiş vaxt, hər zaman kədər və qəzəb hissi ilə andığımız və heç zaman unutmayacağımız qan yaddaşımız...

Üzərindən 30 ildən çox zaman keçməsinə baxmayaraq, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda soydaşlarımızın başına gətirilən müsibətin ürəyimizdəki ağrı-acısı da, günahsız insanlarımıza divan tutan qaniçən düşmənə nifrət və qəzəb hissimiz də o faciənin yaşandığı tarixdəki kimi təzədir və bu, qiyamətə qədər də belə olacaq.

→ 7

## Bu gün biz 31 il əvvəlki biz deyilik

...Erməni əsirləri bizim maşından yerə endilər. Bizim əsirlər ermənilərin maşınından yerə düşəndə isə dəhşətə gəldik. O qədər adamın içində yalnız bircə nəfər bir az normal görünürdü. Allahverdi dedi ki, bu nə məsələdirsə, şəxsən özü araşdıracaq. Amma digər əsirlərin ayaq üstə durmağa belə halı yox idi. Hamısı ucdantutma əzab çəkən, işgəncə verilən adamlar idi. Eləsi də var idi ki, heç yeriməyə taqəti qalmamışdı. Bizim uşaqlar onlardan bir neçəsini kürəyinə alıb bəri gətirdilər.

→ 9

## Övlad məzarına həsrət ana

...Gözlərimi Bakıda, xəstəxanada açdım. Əvvəlcə harada olduğumu dərk etmədim. Bir az keçəndən sonra hər şeyi xatırladım. Uşaqlarım harada idilər, nə edirdilər, bilmirdim. Yaralı qızımın vəziyyəti necə idi? Nənəsigildə olan oğlumun başına nə gəlmişdi, onlara da hücum etmişdilərmi? Körpəmin cansız bədəni harada idi? Boğulurdum. Ağrılardan huşumu itirir, özümə gələndə isə yenə də övladlarım düşürdü yadıma.

→ 9

# Bir millət, iki dövlət

## Qardaş qardaşın yanındadır

**◆ Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri**



## İstanbulun Atatürk Hava Limanında qarşılanma






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Türkiyəyə işgüzar səfərə gedib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı İstanbulun Atatürk Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu və digər rəsmi şəxslər qarşıladılar.

## Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri

# Bir millət, iki dövlət

## Qardaş qardaşın yanındadır

## İstanbulda Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub

**Fevralın 25-də İstanbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olub.**





AZƏRTAC xəbər verir ki, görüşdə Prezident İlham Əliyev Türkiyədə baş vermiş zəlzələ nəticəsində həlak olanların ailələrinə, yaxınlarına, Prezident Rəcəb Tayyib Ərdoğana və qardaş Türkiyə xalqına öz adından və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verdi, xəsarət alanların tezliklə şəfa tapmasını arzuladı. Dövlətimizin başçısı bu faciədən çox kədərləndiyini və onun Azərbaycan xalqını dərindən sarsıtdığını bildirdi.

Azərbaycanın və Türkiyənin həm sevincli, həm də kədərli günlərdə daim bir-birinin yanında olduqlarını bildirən Prezident İlham Əliyev ölkəmizin bu faciənin ilk günündən qardaş Türkiyənin yanında olduğunu qeyd etdi. Dövlətimizin başçısı zəlzələnin nəticələrinin aradan qaldırılması üçün ölkəmizin humanitar yardımları bundan sonra da davam etdirəcəyini diqqətə çatdırdı. Azərbaycan Prezidenti qardaş Türkiyənin bu zəlzələnin nəticələrini də tezliklə aradan qaldıracağına əminliyini ifadə etdi.

Rəcəb Tayyib Ərdoğan Türkiyəyə səfər etdiyinə, Azərbaycanın ilk gündən nümayiş etdirdiyi dəstək və həmrəyliyə görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi. Prezident Rəcəb Tayyib Ərdoğan da qardaş Türkiyənin və Azərbaycanın həmişə bir-birinin yanında olduğunu vurğuladı.

Türkiyə Prezidenti Azərbaycanın göndərdiyi humanitar yardımları yüksək qiymətləndirdi və buna görə təşəkkür etdi. Rəcəb Tayyib Ərdoğan azərbaycanlı xilasedicilərin və həkimlərin zəlzələ bölgəsində öz fəaliyyətlərini böyük cəsarətlə və əzmlə davam etdirdiklərini, insanların xilası üçün fədakarlıqla çalışdıqlarını bildirdi.

Söhbət əsnasında Azərbaycan ilə Türkiyə arasında siyasi, iqtisadi, ticarət, enerji, hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın perspektivləri və daha da dərinləşdirilməsi məsələləri müzakirə olundu.

Dövlət başçıları həmçinin Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi barədə də fikir mübadiləsi apardılar.

Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğanı qarşıdan gələn ad günü münasibətilə təbrik etdi.

Türkiyə Prezidenti təbrikə görə təşəkkürünü bildirdi.

## Səfər başa çatıb





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri fevralın 25-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı İstanbulun Atatürk Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi rəsmi şəxslər yola saldılar.

## Əsrlərin sınaqlarından çıxan Azərbaycan-Türkiyə münasibətləri uğurla inkişaf edir

**Fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri başlayıb. Bu səfər 40 mindən çox insanın ölümünə, 100 mindən çox insanın xəsarət almasına, genişmiqyaslı dağıntılara səbəb olan dəhşətli zəlzələ nəticəsində çətin günlər yaşayan Türkiyə dövləti və xalqı üçün əsl qardaşlıq dəstəyinin göstəricisidir.**

Eyni kökə, dilə, dinə sahib xalqlarımızın minilliklərə söykənən qədim tarixinə nəzər saldıqda belə qardaşlıq köməyinin saysız-hesabsız nümunələrinə rast gəlmək mümkündür. Türkiyə və Azərbaycan xalqlarının Ulu öndərləri Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamları xalqlarımızın çoxəsrlik qardaşlıq əlaqələrinə verilən ən yüksək qiymətdir.

AZƏRTAC xalqlarımız və ölkələrimiz arasında tarixdə bənzəri olmayan qardaşlıq münasibətlərinin bir sıra məqamlarına qısa nəzər salır.

### Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan-Türkiyə əlaqələrini ən yüksək səviyyəyə çatdırıblar

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan-Türkiyə əlaqələri son illər ən yüksək səviyyəyə çatıb. Prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın şəxsi dostluq münasibətləri ölkələrimiz və xalqlarımız arasındakı münasibətlərin belə yüksək səviyyəyə çatmasında mühüm rol oynayır. Qeyd etmək yerinə düşər ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qardaş ölkəyə 1 dövlət, 4 rəsmi, 31 işgüzar səfər həyata keçirilib. Dövlətimizin başçısı sonuncu dəfə Konyada keçirilən V İslam Həmrəyliyi Oyunlarının açılış mərasimində iştirak etmək üçün ötən il avqustun 9-da qardaş ölkədə səfərdə olub.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə indiyədək ölkəmizə 5 rəsmi və 8 işgüzar səfər edib. Prezident Rəcəb Tayyib Ərdoğan sonuncu dəfə oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak etmək üçün ölkəmizə səfər edib. Bununla yanaşı, ölkələrimiz arasında müxtəlif səviyyələrdə də qarşılıqlı səfərlər həyata keçirilir.

Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətdir. Qardaş ölkə Azərbaycanın müstəqilliyini 1991-ci il noyabrın 9-da tanıyıb. İki ölkə arasında diplomatik münasibətlər isə 1992-ci il yanvarın 14-də qurulub. 1992-ci ilin avqustunda Azərbaycanın Türkiyədəki səfirliyi fəaliyyətə başlayıb. Sonrakı illərdə - 1993-cü ildə Azərbaycanın İstanbulda, 2004-cü ildə isə Qarsda baş konsulluqları təsis edilib. Türkiyənin isə hazırda Gəncədə və Naxçıvanda baş konsulluqları fəaliyyət göstərir.

İstər ikitərəfli, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində dostluq və əməkdaşlıq münasibətlərinin ən yüksək nümunəsini ortaya qoyan Azərbaycan və Türkiyə birlikdə nəhəng layihələr reallaşdırmaqla təkcə ölkələrimizin deyil, böyük bir regionun da inkişafına mühüm töhfələr verir. Azərbaycanın və Türkiyənin birlikdə həyata keçirdiyi Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP kimi meqalayihələrdən qardaş ölkələrimizlə yanaşı, digər xalqlar da faydalanır.

Ölkələrimizin beynəlxalq və regional təşkilatlar, o cümlədən BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı çərçivəsində koordinasiyalı fəaliyyət, qarşılıqlı dəstəyin davam etdirilməsi və gücləndirilməsi istiqamətində atdığı addımlar öz bəhrəsini verməkdədir. Azərbaycan-Türkiyə əlaqələrinin belə yüksək inkişafı regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Bu münasibətlər həmçinin türkdilli ölkələr və xalqlar arasında birliyin və əməkdaşlığın daha da gücləndirilməsini şərtləndirən ən mühüm amillərdən biridir. Prezident İlham Əliyev bununla bağlı bildirib: "Türkiyə-Azərbaycan əlaqələri, eyni zamanda bütün türk dünyası üçün də mühüm rol oynayır. Biz türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün birgə səylər göstəririk".

### Qardaş ölkələrimiz arasında münasibətlərin yeni mərhələsinin başlanğıcı - Şuşa Bəyannaməsi

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, torpaqlarımızın otuz ilə yaxın davam edən işğalına son qoyulması ilə nəticələnən Vətən müharibəsi Azərbaycan-Türkiyə münasibətlərinin tarixində tamamilə yeni səhifə açdı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında Azərbaycana açıq, dəqiq və birmənalı dəstək ifadə etməsi nəinki xalqımızı ruhlandırdı, eyni zamanda müharibəyə müdaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri dayandırdı. Bu tarixi Qələbənin təntənəsi olan Zəfər paradında Azərbaycan və Türkiyə prezidentləri çıxışlarında dünyaya xalqlarımızın və ölkələrimizin qardaşlığının sarsılmazlığı və daim bir-birinin yanında olmaları barədə çox mühüm və aydın mesajlar verdilər. Qardaş ölkələrimizin dövlət başçılarının Zəfər paradında tarixi çıxışları qələbəmizin möhtəşəmliyini bir daha dünyaya çatdırdı.

2021-ci il iyunun 15-də Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Şuşada "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzaladılar. Şuşa Bəyannaməsi iki qardaş ölkə arasında tarixi münasibətlərin yeni mərhələsi sayılır. Bu sənəddə təsbit olunan strateji müttəfiqlik iki qardaş dövlət arasında bütün sahələrdə sıx əməkdaşlıq, habelə təhlükəsizlik və müdafiə sahələrində qarşılıqlı yardım prinsiplərini ehtiva edir. Bəyannaməyə əsasən, Türkiyə ilə Azərbaycanı və Azərbaycanın qərbdəki bölgələri ilə Naxçıvan Muxtar Respublikasını birləşdirən dəhlizin (Zəngəzur dəhlizi) açılması və onun davamı olaraq Naxçıvan-Qars dəmir yolunun inşası iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsində vacib rol oynayır.

Prezident İlham Əliyev bu tarixi sənədin əhəmiyyətini onun imzalanması mərasimindəki çıxışında məhz bu cür ifadə edib: "Bu gün imzalanmış Birgə Bəyannamə - Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı Müttəfiqlik haqqında Bəyannamədir və bu ad özü-özlüyündə hər şeyi göstərir, hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu Bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatçısıdır".

Şuşa Bəyannaməsi ölkələrimiz arasındakı münasibətlərin inkişafına mühüm təkan verib. Qardaş ölkələrimiz bu sənəddən irəli gələrək strateji müttəfiqlik münasibətlərini bütün sahələrdə uğurla inkişaf etdirir. Hazırda Türkiyə Azərbaycan Ordusunun ən müasir tələblər səviyyəsində modernləşdirilməsinə fəal dəstək göstərir. Qardaş ölkələrimizin ordularının peşəkarlığının artırılması məqsədilə mütəmadi qaydada genişmiqyaslı hərbi təlimlər keçirilir. Bu baxımdan Azərbaycanda və Türkiyədə 2022-ci ilin sentyabrında keçirilən birgə hərbi təlimlərin əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Həmçinin ötən ilin sentyabrında Ermənistanın Azərbaycan-Ermənistan sərhədində törətdiyi təxribatlarla bağlı Türkiyə hər zaman olduğu kimi qəti dəstəyini ifadə etdi. Bu hadisələr bir daha təsdiqlədi ki, Türkiyə-Ermənistan sərhədlərinin açılması, iki ölkə arasında diplomatik əlaqələrin bərpası barədə məsələlərdə də Türkiyənin dövlət rəsmilərinin mövqeyi qətidir.

Bundan başqa, Türkiyə şirkətləri işğaldan azad olunan ərazilərdə genişmiqyaslı bərpaquruculuq işlərində yaxından iştirak edir. Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Füzuli və Zəngilan Beynəlxalq Hava limanlarının, digər mühüm obyektlərin açılışlarında birgə iştirakı işğaldan azad olunan ərazilərin tezliklə dirçəldilməsinə verilən böyük önəmin göstəricisidir.

Bu, həm də ölkələrimiz arasında iqtisadi əməkdaşlığın da inkişafına mühüm töhfələr verir. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, Azərbaycandan Türkiyəyə 21 milyard dollar, Türkiyədən Azərbaycana 13,7 milyard dollar investisiya yatırılıb. Azərbaycanda qeyri-neft sektoruna investisiya yatıran ölkələr sırasında Türkiyə birinci yerdə qərarlaşır. Bu müsbət dinamika davam etməkdədir.

### Minilliklərə söykənən qardaşlıq münasibətlərinin yeni sınağı

Fevralın 6-da qardaş ölkədə baş verən güclü zəlzələ nəticəsində minlərlə insanın həlak olması, on minlərlə insanın xəsarət alması Azərbaycan xalqını dərindən sarsıtdı, kədərləndirdi. Faciədən dərhal sonra Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğana zəng edərək ölkəmizin Türkiyənin dərdinə şərik çıxdığını, Azərbaycanın və Türkiyənin hər zaman bir-birinin yanında olduğunu bildirdi. Dövlətimizin başçısı 420 nəfərdən ibarət xilasedici heyətin qardaş ölkəyə göndərildiyini və hadisə yerinə çatan kimi Türkiyədən olan həmkarları ilə birlikdə dərhal fəaliyyətə başlayacaqlarını ifadə etdi.

Fevralın 8-də Türkiyənin Bakıdakı səfirliyini ziyarət edərək zəlzələ nəticəsində çoxlu sayda insanın həlak olması ilə əlaqədar başsağlığı verən Prezident İlham Əliyevin "Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, öz həmrəyliyimizi həmişə olduğu kimi nümayiş etdirmişik. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik. Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə" sözləri qardaş Türkiyənin bu çətin günündə hər bir azərbaycanlının hisslərini ifadə edirdi. Dövlətimizin başçısının "Azərbaycan xalqı könüllü olaraq qardaşlara, öz doğma qardaşlarına dəstək olmaq üçün kimin əlində nə var onu gətirir" sözlərindən daha da ilham alan xalqımız yardımtoplama mərkəzlərinə gecə-gündüz demədən axın edərək qardaş Türkiyə xalqına var gücü ilə dəstək olmağa çalışdı.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da zəlzələ ilə əlaqədar sosial şəbəkə hesabında paylaşım edərək qardaş xalqın bu çətin günündə dəstəyini ifadə etdi. Mehriban xanım Əliyevanın Türkiyədəki zəlzələdən zərərçəkənlərə humanitar yardımla bağlı rəsmi instaqram səhifəsində etdiyi paylaşımda Türkiyəyə yardım üçün can atan xalqımızın qardaşlıq dəstəyi ən yüksək səviyyədə qiymətləndirilib: "Hər zaman birlik və həmrəylik nümayiş etdirərək bir-birinə kömək etməyə hazır olmaq, əl-ələ verərək çətinliklərdən və sınaqlardan birlikdə üzüağ çıxmaq Azərbaycan xalqının ən gözəl xüsusiyyətlərindən biridir. Qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələnin ilk saatlarından Türkiyə xalqına göstərdiyiniz dəstək xalqlarımız arasında qardaşlıq, dostluq münasibətlərinin, qarşılıqlı sevginin sarsılmazlığının, möhkəmliyinin, əbədiliyinin növbəti əyani sübutudur".

Zəlzələnin fəsadlarının aradan qaldırılması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin yardımlarından ibarət təyyarələr, həmçinin 16 ədəd xüsusi təyinatlı nəqliyyat vasitəsi Kahramanmaraş şəhərinə yola salındı. Yardımların göndərilməsi sonrakı günlərdə də fasiləsiz davam etdirildi. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Türkiyəyə yardım çağırışına qoşulan xalqımız qardaş xalqın köməyinə yetişmək üçün bir nəfər kimi səfərbər oldu. Azərbaycan hökuməti, eləcə də mərkəzi və yerli icra hakimiyyəti orqanları və sıravi vətəndaşlar Türkiyəyə humanitar yardım göstərilməsi kampaniyasına fəal şəkildə qoşuldular. Zəlzələ ilə bağlı Azərbaycanın İstanbuldakı və Qarsdakı baş konsulluqlarında dərhal qaynar xətt yaradıldı və zərərçəkmişlərə yardım göstərilməsinə başlanıldı. Azərbaycan Respublikası tərəfindən qardaş ölkəyə xilasedicilər, tibbi və inzibati heyət, hərbi həkimlər, könüllülərdən ibarət 867 həmvətənimiz iştirak edib. Bundan başqa, dövlət qurumları, hüquqi və fiziki şəxslər tərəfindən birbaşa maliyyə yardımı edilib. Bu işdə Heydər Əliyev Fondu xüsusilə diqqəti cəlb edir. Fondun təşkil etdiyi kampaniya çərçivəsində qardaş ölkəyə fasiləsiz humanitar yardımlar göndərilir.

Qardaş xalqın bu ağır günündə Azərbaycanın dərhal yardım əlini uzatması Türkiyədə sıravi vətəndaşlardan tutmuş dövlət rəsmilərinə qədər dərin minnətdarlıq hissi ilə qarşılanır. Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğanın tviter hesabında etdiyi paylaşımda Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya təşəkkürü həm də qardaş xalqın minnətdarlıq hissinin ifadəsidir: "Dərdiniz dərdimizdir" deyən azərbaycanlı qardaşlarımızı unutmayacağıq. Axtarış-xilasetmə qrupları başda olmaqla, humanitar yardım təyyarələri ilə ilk gündən bizimlə olan Azərbaycana və dəyərli dostum Mehriban Əliyevaya dəstəyə görə təşəkkürümü bildirirəm".

Dövlətimizin başçısının tapşırığı ilə fevralın 11-də Kahramanmaraş şəhərinə səfər edən xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan Respublikasının dəstəyini bir daha ifadə edib.

Sonda xüsusilə vurğulamaq yerinə düşər ki, Azərbaycan və Türkiyə tarixboyu bir sıra sınaqlarla üzləşsə də, həmin çətinliklərdən mətanətlə çıxıb. Ən fərəhləndirici məqam ondan ibarətdir ki, dövlətlərimiz və xalqlarımız bu çətinliklərin öhdəsindən gəlmək üçün bir-birinə əsl qardaşlıq dəstəyi göstərib. Heç şübhəsiz ki, Türkiyə dövləti və xalqı bu çətin sınağı da geridə qoyacaq. Prezident İlham Əliyev Türkiyənin Bakıdakı səfirliyini ziyarət edərkən bu barədə bildirib: "Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır. Biz belə görürük, Türkiyə və Azərbaycan vətəndaşları da belə görürlər. Bu ağır günlərdə Türkiyənin yanında olmaq bizim üçün böyük şərəfdir... Türkiyə dövlətinin operativ və çevik addımları bir daha göstərdi ki, insan amili Türkiyə hökuməti üçün əsas məsələdir və bu ağır sınaq, eyni zamanda Türkiyənin gücünü bir daha bütün dünyaya göstərəcək. Bu, qardaş xalqımızı sarsıtmayacaq, Türkiyə dövlətinin iradəsinə təsir etməyəcək. Türkiyə dövləti güclü dövlətdir və bu fəlakətlə də mübarizədə öz gücünü göstərir".




# Diplomatiya dərsi

**Bu il fevralın 18-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində təşkil edilmiş "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" adlı plenar iclas tarixi bir toplantı kimi yadda qaldı. Bu toplantının əhəmiyyəti ilk növbədə ondan ibarət idi ki, birinci dəfə olaraq Münhen Təhlükəsizlik Konfransı vasitəsilə Azərbaycanın, Ermənistanın və Gürcüstanın rəhbərləri eyni zamanda bir platformada görüşürdülər. Azərbaycan Prezidenti İlham Əliyevin bu toplantıda iştirakı, plenar iclasdakı proqram xarakterli çıxışı, irəli sürdüyü tezislər isə bölgəmizin bu günü və gələcəyinə aydın strateji baxışı ifadə etməklə həm də daim xatırlanacaq tarix, diplomatiya, siyasət dərsi idi.**

## Azərbaycan xalqı sülh istəyir

Dövlət rəhbərimiz ilk növbədə Rusiya-Ukrayna müharibəsinin ümumi geosiyasi vəziyyəti tamamilə dəyişməsinə, bəzi ənənəvi tərəfdaşlarla ticari əməkdaşlıq sahəsində müəyyən çətinliklərin müşahidə olunmasına diqqət yönəltdi. Belə bir durumda uzun illərdən bəri müasir daşımalar və logistika infrastrukturunun yaradılmasına yatırımlar edərək geniş potensial formalaşdıran Azərbaycanın bu sahədə malik olduğu imkanları nəzərə çarpdırdı. Qeyd etdi ki, Mərkəzi Asiyadan daşınan yüklərin Azərbaycan vasitəsilə Avropaya yönəldilməsi əlavə imkanlar açır.

Bu, eyni zamanda yaşadığımız qitədə sülh və əməkdaşlığın əldə olunmasına, mövcud imkanlardan sosial-iqtisadi inkişaf, insanların rifahı, gələcək nəsillər üçün daha gözəl bir dünyanın qurulması üçün Prezident İlham Əliyevin bütün maraqlı tərəflərə çağırışı idi. Bütün bunları təxminən 30 il əvvəl istəmədən işğalçı müharibəyə cəlb olunan və bunun ağrı-acılarını yaşayan, müharibənin xalqlara necə böyük dağıntılar və əziyyətlər gətirdiyini yaxşı bilən, buna görə də Avrasiya qitəsində sülhün bərqərar olmasını istəyən Azərbaycan xalqının rəhbəri dilə gətirirdi.

Panel iclası izləyən hər bir kəsin maraqlandığı əsas suallardan biri də, təbii ki, hazırda Ermənistanla Azərbaycan arasında sülh prosesinin gedişi ilə bağlı idi. Dövlətimizin rəhbəri İlham Əliyev bu suala da aydınlıq gətirərək bildirdi ki, hazırda iki ölkə arasında sülh sazişi üzərində işlər aparılır. Azərbaycan və Ermənistan uzun müddət çəkmiş toqquşmadan uzaqlaşmanı nümayiş etdirməli, qarşılıqlı ədavət və düşmənçiliyə son qoymalıdırlar. Azərbaycan Prezidenti regionda vəziyyətə ikiistiqamətli yanaşmanın zəruriliyinin də başa düşüldüyünü bildirərək qeyd etdi ki, bu istiqamətlərdən birincisi Azərbaycanla Ermənistan arasında sülh danışıqları istiqaməti, ikincisi isə, Azərbaycanın Qarabağdakı erməni əhalisi ilə əlaqələri məsələsidir. Prezident İlham Əliyev Ermənistan rəhbərliyi və beynəlxalq ictimaiyyət qarşısında bir daha bəyan etdi ki, Dağlıq Qarabağ sözü artıq qüvvədən düşüb. Azərbaycanda Dağlıq Qarabağ kimi inzibati vahid yoxdur. Azərbaycanın suverenliyinə və Konstitusiyasına hörmət edilməlidir. Azərbaycanda erməni əhalinin olduğu Qarabağ rayonu var. Dövlət rəhbərimiz Qarabağdakı erməni azlığın hüquqları və təhlükəsizliyi ilə bağlı müzakirələrin aparılacağını, amma Azərbaycan dövlətinin erməni icmasının Qarabağda doğulmuş və bütün ömrü boyu orada yaşamış nümayəndələri ilə müzakirə etməyə hazır olduğunu, Qarabağda Rusiyadan rəhbər mövqe tutmaq üçün ixrac edilmiş şəxslə heç bir müzakirə aparılmayacağını bəyan etdi və Ruben Vardanyan kimi ünsürləri suyu bulandırmaq, sülh prosesinə mane olmaq üçün Qarabağa göndərmiş ünvanlara açıq mətnlə öz sözünü, qətiyyətli mövqeyini çatdırdı.

## Nəzarət-buraxılış məntəqələri olmadan sərhədlərin delimitasiyası mümkün deyil

Azərbaycan Prezidenti ölkəmizin vətəndaş cəmiyyəti fəallarının regionun ekoloji vəziyyətinin qorunması məqsədilə dekabrın 12-dən Laçın dəhlizində keçirdikləri aksiya barədə məqamlara da aydınlıq gətirdi. Məlum olduğu kimi, erməni təxribatçıları və onların xaricdəki havadarları bu aksiyanın guya Qarabağdakı mülki əhaliyə qarşı yönəlməsi, onları blokada vəziyyətində saxlaması, hərəkətlərinə mane olması barədə hay-küy salır, yanlış rəy yaratmağa çalışır, həmişəki kimi yenə də saxtakarlıqlarından əl çəkmirlər. Azərbaycan Prezidenti toplantıdakı çıxışı zamanı belə cəhdləri ifşa etdi. Bildirdi ki, vətəndaş cəmiyyəti fəallarımız keçid məntəqəsinə gələndən indiyədək 2500-dən çox nəqliyyat vasitəsi, o cümlədən Rusiya sülhməramlılarının və Qırmızı Xaçın təmsilçilərinin yük avtomobilləri buradan keçib. Qarabağdan 100 pasiyent müalicə üçün Qırmızı Xaç tərəfindən Ermənistana aparılıb. Əgər Qarabağdakı ermənilər bu yoldan istifadə etməyə çalışsalar, onları heç kim dayandırmayacaq.

Prezident İlham Əliyev Münhendə Amerika Birləşmiş Ştatlarının dövlət katibi Antoni Blinken və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə birgə görüşdən sonra televiziya kanallarına verdiyi müsahibədə də bununla bağlı qeyd etdi ki, biz haqlı olaraq yataqlarımızın qanunsuz istismarının dayandırılmasını tələb edirik. Buna nail olunmayana qədər bizim ictimai fəallarımız öz şərəfli missiyalarından əl çəkməyəcəklər. Dövlət rəhbərimiz onu da qeyd etdi ki, nəzarət-buraxılış məntəqələri olmadan sərhədlərin delimitasiyası mümkün deyil: "Biz kommunikasiyaların açılması haqqında danışırıqsa, əlbəttə ki, həm Zəngəzur dəhlizinin hər iki başında, eyni zamanda Laçın rayonu ilə Ermənistan arasındakı sərhəddə nəzarət-buraxılış məntəqələri yaradılmalıdır".

Prezident İlham Əliyev panel iclasındakı çıxışı zamanı Ermənistanın 27 il ərzində Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlaması, beynəlxalq hüququ pozması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl etməməsi və bütün bunların müqabilində bu ölkəyə qarşı heç bir sanksiya tətbiq olunmaması faktını xatırlatdı. "Biz hər zaman müharibənin qarşısını almaq üçün Ermənistana qarşı sanksiyaların tətbiq olunmasını istəyirdik. Biz Minsk qrupunun nəticə əldə etməsini gözləyirdik, BMT Təhlükəsizlik Şurasının öz qətnamələrinə hörmət etmələrini gözləyirdik. Lakin heç bir hərəkətin olmadığını gördük və ümumi fikir bundan ibarət idi ki, bu münaqişə dondurulmuşdur".

## "Ermənistanın mövqeyində tərəqqi var, ancaq bu, kifayət qədər deyil"

Azərbaycan Prezidenti ərazi bütövlüyünü və ədaləti bərpa etmək, habelə BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmək üçün ölkəmizin döyüşmək məcburiyyətində qaldığını, Vətən müharibəsində 3 min şəhid verdiyini diqqətə çatdırdı. Eyni zamanda bildirdi ki, 30 illik işğalı, Livan böyüklüyündə ərazinin tamamilə xarabalıqlar içində olduğunu da unutmamalıyıq. Azərbaycan torpaqlarının işğalı, bir milyon azərbaycanlının evindən didərgin salınması, işğal altında olan ərazilərdəki 67 məsciddən 65-nin dağıdılması və onların təhqir edilməsi - bütün bunlar qonşularımız tərəfindən edilib.

2020-ci ilin noyabrında imzalanmış üçtərəfli Bəyanat, de-fakto Ermənistan tərəfindən kapitulyasiya aktıdır. Əslində, Vətən müharibəsinin nəticələrini, Azərbaycanın bu müharibədə qazandığı tarixi qələbəni beynəlxalq ictimaiyyətlə yanaşı, Ermənistan cəmiyyəti də qəbul edib. Əks təqdirdə, faktiki kapitulyasiya aktna imza atmış Nikol Paşinyan sonuncu seçkilərdə yenidən Ermənistanın baş naziri olmaq imkanı qazanmazdı. Bu, əslində ortada dolaşıb revanşist bəyanatlarla suyu bulandırmaq istəyən, bununla müəyyən dividendlər qazanmağa çalışan bir ovuc təxribatçıdan fərqli olaraq Ermənistan cəmiyyətinin sülh arzusunda olduğunu, Paşinyana yeni mandatın da məhz sülh naminə verildiyini göstərir.

Azərbaycan Prezidenti Qarabağ ermənilər ilə bağlı dövlətimizin mövqeyini bir daha diqqətə çatdıraraq bəyan etdi ki, rəsmi Bakı Qarabağdakı erməni icmasının nümayəndələri ilə praktiki təmaslara başlamağa hazırdır. Qarabağ erməniləri Azərbaycan vətəndaşlarıdır, azlıqdır. Azərbaycan çoxmillətli ölkədir və Azərbaycanda bütün azlıqlar mədəniyyət, dil, həmçinin təhlükəsizlik də daxil olmaqla, eyni hüquq və üstünlüklərdən faydalanırlar. Hazırda Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması məqsədilə bir neçə platforma fəaliyyətdədir. Onlardan biri Brüssel formatıdır. Bu formatın üçtərəfli olduğu, yəni Aİ, Azərbaycan və Ermənistan arasında olduğu barədə ümumi bir anlaşma var. 28 il ərzində münaqişənin həlli ilə bağlı heç bir nəticəyə nail ola bilməyən Minsk qrupu isə artıq kənara çəkilib və mövcud deyil. Ona görə də tərəflər ABŞ, Rusiya və indi də Avropa İttifaqı tərəfindən təşkil olunmuş platformada bir araya gəlirlər. Lakin Fransa hökuməti birtərəfli ermənipərəst mövqe tutduğundan o, bu platformada artıq iştirak etmir.

## Azərbaycan ədaləti güc vasitəsilə bərpa etməyə məcbur oldu

Azərbaycan Prezidenti sülh müqaviləsinin beynəlxalq norma və prinsiplər əsasında tərtib edilməsini vacib saydı, Qarabağ haqqında hər hansısa müddəanın qəbuledilməzliyini bildirdi. Onu da qeyd etdi ki, ilk baxışda Ermənistanın mövqeyində tərəqqi var, ancaq bu, kifayət qədər deyil. Prezident İlham Əliyev dedi: "...Bizim təcrübəmiz göstərir ki, sülh danışıqları bəzən çox uzanır. Biz 28 il boyunca sülh danışıqları aparmışıq, təsəvvür edin, 1992-ci ildən 2020-ci ilə qədər. Əgər biz Qarabağ münaqişəsini döyüş meydanında həll etməsəydik, bu sülh danışıqları daha 28 il çəkəcəkdi". Bu da Ermənistanın vəziyyəti dondurmaq, torpaqlarımızı həmişəlik işğal altında saxlamaq niyyətinə xidmət edirdi. Bu vəziyyət Ermənistanın dünyanın müxtəlif bölgələrindəki dostları üçün də məqbul idi, onları da qane edirdi. Ona görə də Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinin verdiyi hüquqdan, qanuni haqqından istifadə edərək ədaləti güc vasitəsilə bərpa etməyə məcbur oldu.

Azərbaycan Prezidenti bir daha bəyan etdi ki, bizim apardığımız müharibənin məqsədi torpaq işğal etmək deyildi. Ona görə 44 gün ərzində şəhər və kəndlərimiz "İsgəndər" raketləri ilə atəşə tutulduğunda belə heç kəs döyüş meydanını tərk etmədi. Müharibə zamanı Ermənistan ordusundakı fərarilərin sayı isə 11 minə çatmışdı. Bu ona görə baş verdi ki, onların apardığı müharibə işğalçı müharibə idi. "Ermənistanda doğulmuş insanlar üçün Azərbaycana gedib onlara aid olmayan torpaqdan ötrü müharibə etmək həvəsi yox idi".

Azərbaycan Prezidentinin bu kəlmələri tarix salnaməsinə yazılacaq və xalqımızın milli ruhunu, azadlıq eşqini həmişə oyaq saxlayacaq manifestdir: "Silah vacibdir, taktika da vacibdir, planlaşdırma çox vacibdir. Lakin ən önəmli olan həvəsdir. Azadlıq istəyən xalqı işğal etmək mümkün deyil". Azərbaycan hərbi qüdrəti, gələcəyə strateji baxışı, sosial-iqtisadi gücü, ən əsası isə xalqımızın milli ruhu ilə bütün zamanların qalibi olacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Nazir Ceyhun Bayramov BQXK-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri ilə görüşüb

**Fevralın 25-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Draqana Kojiç ilə görüşüb.**

Görüş zamanı Azərbaycanla BQXK arasında əməkdaşlıq məsələləri, Laçın yolu ətrafında vəziyyət, habelə BQXK-nin Azərbaycanın Xankəndi şəhərində fəaliyyəti məsələləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov BQXK-nin ölkəmizdə həyata keçirdiyi fəaliyyətin əhəmiyyətini qeyd edib. Daha sonra Laçın yolundan BQXK daxil olmaqla avtomobillərin, yüklərin və vətəndaşların sərbəst hərəkəti istiqamətində səylərdən məmnunluq ifadə olunub. Etirazlara səbəb olan vəziyyətin aradan qaldırılmasının vacibliyi bildirilib.

Nazir həmçinin son aylar Laçın yolundan 3000-dən çox nəqliyyat vasitəsinin keçməsi və digər faktlar nəzərə alınmaqla, Laçın yolunun guya Azərbaycan tərəfindən bağlanması, erməni sakinlərinə qarşı "blokada" tətbiq edildiyi və "gərgin humanitar vəziyyət" yarandığı barədə Ermənistan tərəfinin iddialarının heç bir əsasının olmadığını qeyd edib. Eyni zamanda hələ 2022-ci ilin dekabr ayında ehtiyac olacağı təqdirdə, Azərbaycan tərəfinin birbaşa və ya BQXK vasitəsilə yerli erməni sakinlərə yardım göstərməyə hazır olduğunu bildirdiyi xatırlanıb.

Görüş zamanı eyni zamanda qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***AZƏRTAC***

# Görüşdə İKT sahəsində yaradılan yeni imkanların əhəmiyyəti önə çəkilib



**Bu gün İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təşkilatçılığı ilə rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və yerli innovasiya ekosisteminin fəal üzvləri arasında "dəyirmi masa" keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə yerli startap icması, innovativ həllər və rəqəmsal mühitin inkişaf etdirilməsinə dəstək olan şirkətlərin rəhbərləri, rəsmi qurumlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Görüşdə innovasiya və startap ekosisteminin cari vəziyyəti, müasir çağırışlar, problemlər istiqamətində fikir mübadiləsi aparılıb. Prezident İlham Əliyevin müvafiq sənədləri imzalaması ilə bu ildən ölkəmizdə İKT sektoruna tətbiq olunan güzəştlərin sahibkarlar üçün yaratdığı geniş imkanlar müzakirə olunub.

Nazir çıxışında ekosistemin inkişafı, gücləndirilməsi ilə bağlı görülən işlər, bu sahədə tətbiq olunan strategiyalar barədə danışaraq İKT sahəsində yaradılan yeni imkanların əhəmiyyətini önə çəkib.

Görüşdə iştirak edən "Ernst and Young" şirkətinin nümayəndəsi Arzu Hacıyeva Azərbaycanda texnoloji ekosistemin inkişafı üçün qanunvericiliyə edilən dəyişikliklərin xülasəsi ilə bağlı təqdimat keçirib.

Sonra tədbir iştirakçıları arasında interaktiv müzakirə baş tutub. Nazir və digər rəsmi şəxslər ekosistemdə gedən proseslər, yeni biznes mühitinin yaradılması ilə bağlı islahatlar, vergi sistemində innovativ şirkətlərin fəaliyyətinə tətbiq edilən imtiyazlar haqqında auditoriyanın suallarını cavablandırıblar.

# Beynəlxalq Multikulturalizm Qış Məktəbi başa çatıb



**Fevralın 25-də "Mədəni müxtəliflikdə birlik: Azərbaycan nümunəsində" mövzusunda XIII Beynəlxalq Multikulturalizm Qış Məktəbinin bağlanış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Xocalı qurbanlarının xatirəsi ehtiramla anılıb.

Sonra çıxış edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) Himayəçilik Şurasının sədri, akademik Kamal Abdulla diqqətə çatdırıb ki, Qış Məktəbinin iştirakçıları bir həftə ərzində Azərbaycanın bir çox məkanları ilə tanış olublar.

Bildirilib ki, Beynəlxalq Multikulturalizm Qış Məktəbinin əhəmiyyəti çox böyükdür. Çünki Qış Məktəbi Azərbaycanda Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub.

"Sabah Azərbaycan tarixinin ən faciəvi günlərindən biri - Xocalı soyqırımının 31-ci ildönümüdür. Ermənilər Xocalıya hücum edərək qadınları, uşaqları, yaşlıları azərbaycanlı olduqları üçün öldürüblər. Bu hadisələrin bir daha təkrar olunmaması üçün Xocalı faciəsini unutmamalıyıq",- deyə BBMM-in Himayəçilik Şurasının sədri vurğulayıb.

Sonra çıxış edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bildirib ki, belə tədbirlər Azərbaycan multikulturalizminin dünyada tanıdılması baxımından çox önəmlidir. Qış Məktəbinin iştirakçılarının Azərbaycan xalqının qonaqpərvərliyinin əyani şahidi olduqlarını qeyd edən Rəvan Həsənov deyib: "Qış və Yay Beynəlxalq Multikulturalizm məktəbləri mərkəzin mühüm layihələrindən biridir. Bu layihə ildə iki dəfə təşkil edilməklə Bakı şəhəri ilə yanaşı, bir sıra bölgələrimizi də əhatə edir. Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən bu tədbir artıq ənənə halı alıb. Məktəbdə iştirak edən əcnəbi tələbələr Azərbaycan multikulturalizmi ilə yaxından tanış olurlar".

Rəvan Həsənov vurğulayıb ki, layihənin iştirakçıları ilə dostluq və əməkdaşlıq davam edəcək.

Sonda Qış Məktəbinin iştirakçılarına sertifikatlar təqdim olunub.

Xatırladaq ki, XIII Beynəlxalq Multikulturalizm Qış Məktəbində Azərbaycan, Türkiyə, Braziliya, Rumıniya, Almaniya, Fələstin, Rusiya, Amerika Birləşmiş Ştatları, Gürcüstan, Pakistan, İraq, Bolqarıstan, Mozambik, Mərkəzi Afrika Respublikası, Suriya, Şri-Lanka, Çin və Yaponiya kimi ölkələrin aparıcı universitetlərində təhsil alan tələbələr iştirak ediblər.

Qış Məktəbinin iştirakçılarına Azərbaycandakı multikultural mühit, tolerant əhvali-ruhiyyə, etnik-dini müxtəliflik, ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, fərqli konfessiyaların dinc yanaşı yaşaması haqqında ətraflı məlumat verilib. İştirakçılar "Heydər Əliyev və multikulturalizm", "Azərbaycanın dil siyasətində multikulturalizm", "Azərbaycanın multikulturalizm modeli: Mədəni müxtəliflikdə birlik", "Mədəniyyətlər sərhədində ünsiyyət aktı kimi Azərbaycan ədəbiyyatının tərcümələri: Qurban Səidin "Əli və Nino" əsəri" mövzularında mühazirələr dinləyiblər. Qış Məktəbi çərçivəsində təşkil olunan "Öz xalqını təqdim et" musiqili axşamda iştirakçılar öz ölkələrinin tarixi, mədəniyyəti, etnik müxtəlifliyi haqqında məlumat veriblər.

Səfər müddətində iştirakçılar Şəhidlər xiyabanını və Fəxri xiyabanı ziyarət ediblər. "Şahdağ" Qış-Yay Turizm Kompleksində, Xaçmaz Tarix Diyarşünaslıq Muzeyində, Quba Soyqırımı Memorial Kompleksində olublar. Qubada dağ yəhudilərinin kompakt yaşadığı Qırmızı Qəsəbədə yerli əhali ilə görüşlər keçiriblər, məscid, kilsə və sinaqoqları ziyarət ediblər.

# Beynəlxalq koalisiyanın nümayəndələri Ağdamdan sülh çağırışı ediblər

**Fevralın 25-də "Xocalı: Barışıq üçün etiraf et" beynəlxalq koalisiyasının Ağdam şəhərində "Sülh üçün çağırış" mövzusunda tədbir təşkil olunub.**









AZƏRTAC xəbər verir ki, tədbirdə İtaliya, Danimarka, Macarıstan, Bosniya və Herseqovina, Türkiyə və digər ölkələrdən mütəxəssislər iştirak ediblər.

Qonaqlara əvvəlcə Ağdamın tarixi, indiki vəziyyəti haqqında ətraflı məlumat verilib. Bildirilib ki, Qarabağ xanlığının banisi Pənahəli xan XVIII əsrdə Ağdamda ağ daşdan ev tikdirib. Ağdam şəhərinin adı da buradan götürülüb. Qədim türk dilində isə Ağdam kiçik qala mənasını daşıyır. Ağdam şəhəri Qarabağ xanlığı dövründə inkişaf edib. Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Burada sənaye və kənd təsərrüfatı inkişaf etmişdi. Ağdam Azərbaycan elminə və mədəniyyətinə onlarla görkəmli şəxsiyyət bəxş edib. Ağdamda həm də Azərbaycan mədəniyyətinin ən vacib nümunəsi sayılan muğam geniş inkişaf edib. Qarabağ muğam məktəbinin nümayəndələri Azərbaycan xalqının musiqi mədəniyyətinin inkişafına böyük təsir göstərib.

Məlumat verilib ki, ermənilər 1993-cü il iyulun 23-də Ağdam şəhərini işğal etdikdən sonra BMT-nin Təhlükəsizlik Şurası 853 nömrəli qətnamə qəbul edərək erməni hərbçilərini dərhal Ağdamı tərk etməyə çağırıb. Amma buna baxmayaraq, BMT-nin qətnaməsi yerinə yetirilməyib. Ermənilər işğal dövründə Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdamın yerində indi talan edilərək viranəyə çevrilmiş xarabalıqlar qalıb.

Beynəlxalq koalisiyanın nümayəndələri sonra xocalılıların qətlə yetirildiyi, Xocalı ilə Ağdam arasında yolun üzərində yerləşən Şelli kəndindəki "Ölüm dəhlizinə" səfər ediblər. Xocalı faciəsinin şahidləri bildiriblər ki, 1992-ci il fevralın 26-da Xocalı işğal edilərkən erməni terrorçuları guya bu yolun "humanitar dəhliz" kimi təmin edildiyini bildirib, lakin elə həmin dəhlizdə yüzlərlə dinc insanı qətlə yetiriblər.

Daha sonra koalisiya üzvləri humanitar dəhlizin "Ölüm dəhlizi"nə çevrildiyi, Xocalının cəmi 9 kilometrliyində yerləşən ərazidə günahsız qurbanların xatirəsinə zeytun ağacı əkiblər. Sülhə çağırışı simvolizə edən zeytun ağacının yanında isə koalisiyanın şüarını əks etdirən "Ədalət olmadan etimad, etimad olmadan barışıq mümkün deyil" ("Without justice there's no trust, without trust there's no reconciliation") yazılmış xüsusi poster yerləşdirilib.

İtaliya İnsan Haqları Federasiyasının sədri Antonio Stanqonun səsləndirdiyi beynəlxalq koalisiyanın bəyanatında qeyd olunub ki, sülhə gedən yol ədalətdən keçir və qalıcı sülhə yalnız keçmişdə baş vermiş hərbi cinayətlərin nəticələrinin aradan qalxması ilə nail olmaq olar.

"Bu gün biz Xocalının 9 kilometrliyindəyik, "Ölüm dəhlizinə" çevrilmiş dırnaqarası "humanitar dəhlizdəyik". Səfərimiz bu torpaqlar azad edildiyi üçün mümkün olub. Biz yaxında belə anım mərasimlərini Xocalıda keçirəcəyimizə də əminik. Münaqişənin bitdiyi, Azərbaycan və Ermənistan liderlərinin regionda sülh erasının başladığını elan etdiyi bir şəraitdə beynəlxalq vətəndaş cəmiyyəti üçün də hərəkətə keçmək zamanıdır. Bu cəhdlər cəzasızlıq və susqunluğa son verilməsi, Xocalı barədə ədalətə nail olması və yalnız belə bir sağlam əsasda sülhün əldə olunmasını hədəfləməlidir", - deyə bəyanatda qeyd olunur.

Sonda natiq bəyan edilən hədəflərə nail olunması istiqamətində koalisiyanın "Etiraf və barışıq" adlı praktiki proqramının sabah Bakıda keçid ədaləti mövzusunda keçiriləcək konfransda təqdim ediləcəyini bildirib.

Sonra qonaqlar Ağdam şəhərində Xocalı soyqırımı qurbanlarının vaxtilə dəfn olunduğu xiyabanı ziyarət ediblər. Xocalı sakinləri bildiriblər ki, Ağdam çox doğma, əziz və müqəddəsdir. Çünki Ağdam torpağında yüzlərlə Xocalı şəhidi uyuyur.

Ziyarətçilər şəhidlərimizin ruhlarına dualar oxuyublar. Burada bütün məzarlıqlarımızda törədilmiş vəhşiliklərdən, eyni zamanda Milli Qəhrəman Allahverdi Bağırovun qəhrəmanlığı haqqında danışılıb. Diqqətə çatdırılıb ki, ermənilər xislətlərinə uyğun olaraq, Şəhidlər xiyabanındakı qəbirlərin əksəriyyətini qarət məqsədilə qazaraq dağıdıblar.

Xocalı qətliam dəhlizinə səfəri çərçivəsində xarici qonaqlar Ağdam Cümə məscidini və Ağdam Şəhidlər xiyabanı ziyarət ediblər, burada dəfn edilmiş faciə qurbanlarının ruhlarına dualar oxuyublar. Ağdama səfər çərçivəsində qonaqlara Azərbaycan Respublikası Prezidentinin Qarabağ üzrə xüsusi nümayəndəliyində keçirilən görüşdə Qarabağda dini və mədəni abidələrin bərpası ilə bağlı aparılan işlər barədə məlumat verilib.





## Giorgi TATAR: "İşğaldan azad edilmiş ərazilərə gəldiyim zaman heyrət içində idim"

**"Mən ilk dəfə Şuşaya noyabr ayında getmişdim. İşğaldan azad edilmiş ərazilərə gəldiyim zaman heyrət içində idim. Dağıntıların necə ağır və ciddi olduğunun şahidi oldum. Hər yer çox qəddarcasına və vəhşiliklə dağıdılmışdı. Mən orada Xocalı sakini ilə görüşmüşdüm. Özümü çox qəribə və hüznlü hiss edirdim. Bundan sonra da necə hiss edəcəyimi bilmirəm".**

AZƏRTAC xəbər verir ki, bunu "Xocalı: Barışıq üçün etiraf et" koalisiyasının macarıstanlı nümayəndəsi Giorgi Tatar söyləyib.

"Bizim həm Azərbaycan, həm də Ermənistan tərəfindən olan dövlət məmurlarını, təmsilçilərini və sıradan vətəndaşları eyni "dəyirmi masa"da bir araya gətirərək barış üçün addım atmaq planlarımız var", - deyə Giorgi Tatar vurğulayıb.






## Türkiyənin səhiyyə naziri zəlzələ bölgəsindəki azərbaycanlı həkimlərlə görüşüb





**"Qardaşımız, can dostumuz Azərbaycan dəstəyi və acımıza ortaq olması ilə yanımızdadır".**

AZƏRTAC xəbər verir ki, bunu Türkiyənin səhiyyə naziri Fahrettin Koca tviter səhifəsində yazıb.

"Kahramanmaraşdakı səhra xəstəxanalarından biri Azərbaycan tərəfindən quruldu. Həkimlərimiz, səhiyyə işçilərimiz qədər can yandıran heyətlərinə ayrıca təşəkkür edirik", - deyə o bildirib.

Qeyd edək ki, Fahrettin Koca zəlzələ bölgəsində azərbaycanlı həkimlərlə görüşündən video da paylaşıb.

## Zəlzələdən zərərçəkən uşaqların sevimli dostları













**Böyük dağıntılara və çoxsaylı insan ölümünə səbəb olmuş zəlzələnin yaratdığı kədəri Türkiyə xalqı ilə birgə yaşayan dövlətimiz və xalqımız faciənin ilk saatlarından səfərbər olub.**

Qardaş ölkə ilə dostluğumuzun və həmrəyliyimizin təcəssümü olaraq zərərçəkənlərə kömək etmək məqsədilə Türkiyəyə yollanan könüllü gənclərimiz təbii fəlakətdən zərər görmüş Kahramanmaraş, Hatay, Adıyaman və Malatyaya gedərək günbəgün fəaliyyət zonasını, həmçinin yerli əhali üçün göstərdiyi xidmətlərinin sahəsini genişləndirib, xüsusilə də təbii fəlakətin kəskin travmalar buraxdığı uşaqlara dəstək üçün müxtəlif xidmətlər həyata keçiriblər.

Azərbaycan Gənclər Fondundan AZƏRTAC-a bildiriblər ki, öz qayğıkeşliyi ilə zəlzələ bölgəsindəki uşaqların sevimlisinə çevrilən Azərbaycan könüllüləri artıq iki həftəyə yaxındır ki, bu bölgələrdə yaşayan həssas vəziyyətdəki minlərlə uşağa xidmət edirlər. Belə ki, könüllülərimiz zərərçəkmiş uşaqların reabilitasiyası və asudə vaxtının səmərəli təşkili məqsədilə xüsusi çadırlar quraşdırır, habelə təbii fəlakət zamanı uşaqların keçirdiyi sarsıntıları, yaşadıqları travmaları minimuma endirmək üçün hər gün yüzlərlə uşağa qayğı və psixoloji dəstək xidməti göstərir, eləcə də uşaqların asudə vaxtının səmərəli təşkili məqsədilə müxtəlif oyunlar və digər əyləncəli, maarifləndirici fəaliyyətlər təşkil edirlər. Həmçinin gənclərimiz tərəfindən "uşaq və ana mərkəzi" kimi fəaliyyət göstərən çadırlar qurulur və bu mərkəzdə uşaqlara kino və cizgi filmlərinin göstərilməsi üçün də şərait yaradılır.

## Şəmkirdən Türkiyəyə növbəti yardım göndərilmişdir






**Şəmkirlilər Türkiyədə zəlzələdən zərərçəkənlər üçün yardım aksiyasını davam etdirirlər.**

Şəmkirlilər indiyəcən yardımla dolu 5 TIR və 4 yük maşınını qardaş ölkə üçün yola salmışlar. Göndərilən yardımlar içərisində əsasən çadırlar, generatorlar, əl fənərləri, elektrik cihazları, sobalar, tulumlar, yeni isti yataq dəstləri və geyimlər, gigiyenik vasitələr, uşaqlar üçün oyuncaqlar, ərzaq məhsulları (quru qida), meyvə suları və s. vardır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*




# XX əsrin faciəsi - Xocalı soyqırımı 31





**Torpaqlarımızın azad olunması ilə nəticələnən 44 günlük Vətən müharibəsi həm də xalqımızın qisas tarixi oldu. Çünki bu savaşdakı qələbəmizlə Ermənistanın soyqırımı cinayətlərinin qurbanı olan vətəndaşlarımızın intiqamını aldıq. Ermənilərin müxtəlif vaxtlarda, o cümlədən 31 il əvvəl Xocalıda qətlə yetirdikləri soydaşlarımızın ruhları indi rahatdır.**

# Erməni faşizminin Xocalı cinayəti

## 44 günlük Vətən savaşındakı zəfər nəticəsində Xocalıda soyqırımına məruz qalmış vətəndaşlarımızın ruhları da rahatlıq tapdı

### Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra faciəyə siyasi-hüquqi qiymət verildi

Xocalıda baş verənlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olundu. Lakin xalq Xocalı kədəri, hüznü yaşadığı vaxtda faciənin ağırlığı ozamankı Azərbaycan hakimiyyəti tərəfindən qiymətləndirilmədi. Çünki bu, 1992-ci ildə iqtidarda olanlarla hakimiyyətə can atanların arasında baş verən hərc-mərcliyin, respublikada anarxiyanın, habelə Dağlıq Qarabağ və onun ətrafında baş verən oyunların məntiqi nəticəsi idi.

Xocalı faciəsi üzərində hakimiyyətə yiyələnən AXC-Müsavat iqtidarı dövründə soyqırımı barədə danışılsa da, sonda hər şeyin üstü örtüldü. Hakimiyyət nümayəndələri faciənin günahkarlarının adlarının üstündən sükutla keçdilər. Həmin dövrdə soyqırımına dövlət səviyyəsində hüquqi-siyasi qiymət verilmədi. 2002-ci ildə faciənin onuncu ildönümü ilə əlaqədar Ulu Öndər Heydər Əliyev xalqa müraciətində deyirdi: "Bütün bu qanlı hadisələrin qarşısının alınmamasında, o cümlədən Xocalı faciəsinin baş verməsində, şəhərin təpədən-dırnağa qədər silahlanmış amansız düşmənlə üz-üzə müdafiəsiz qalmasında erməni qəsbkarları ilə bərabər, Azərbaycanın ozamankı rəhbərliyi, habelə hakimiyyət uğrunda hər cür yolverilməz vasitələrlə mübarizə aparan müxalifət qüvvələri də birbaşa məsuliyyət daşıyırdılar. Əslində, o zaman respublikaya rəhbərlik edən şəxslər şəhərin müdafiəçilərinə təcili kömək göstərmək, faciə barədə dünya ictimaiyyətinə geniş məlumat vermək, beynəlxalq aləmə həyəcan təbili çalmaq əvəzinə Xocalı dəhşətlərinin həqiqi miqyasını xalqdan gizlətməyə cəhd etmiş, tam fəaliyyətsizlik və xalqın taleyinə biganəlik nümayiş etdirmişlər. Hətta sonralar da Xocalı faciəsinin mahiyyətini açmaq, onun günahkarlarını ifşa etmək, dünya ictimai fikrinə çatdırmaq üçün heç bir iş görülməmiş, əksinə, bu faciə hakimiyyətlə müxalifətin qarşılıqlı ittihamları və siyasi mübarizəsi vasitəsinə çevrilmişdir".

(əvvəli qəzetin 25 fevral nömrəsində)

O dövrdə iqtidar qorxaqlıq və qətiyyətsizlik nümayiş etdirərək, XX əsrdə bəşəriyyəti dəhşətə salan bu müdhiş cinayət barədə ilk günlərdə xalqa məlumat belə vermirdi. Sonralar - AXC-Müsavat iqtidarı dövründə də insanlıq əleyhinə yönələn cinayətə lazımi siyasi və hüquqi qiymət verilməsi üçün heç bir tədbir görülmədi.

Yalnız Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Xocalı faciəsi özünün siyasi-hüquqi qiymətini aldı. İlk növbədə Xocalı faciəsi ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı aktı kimi təsbit olundu və dünyaya tanıdılması istiqamətində xeyli iş görüldü. Ulu Öndərin təşəbbüsü ilə Milli Məclis 1994-cü il fevralın 24-də "Xocalı soyqırımı (genosidi) günü haqqında" xüsusi qərar qəbul etdi. Bu sənəddə hadisənin başvermə səbəbləri, günahkarlar təfsilatı ilə açıqlandı. Eyni zamanda Xocalı faciəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, erməni qəsbkarlarının beynəlxalq müstəvidə ifşası mühüm vəzifələr kimi önə çəkildi.

Bununla da Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ölkələrinə və beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görüldü. Erməni şovinist millətçilərinin azərbaycanlılara qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması, faciənin soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyətə start verildi.

### Xocalı soyqırımı beynəlxalq miqyasda hüquqi-siyasi qiymətini almalıdır

Tarixi şərait və erməni təəssübkeşliyi səbəbindən xalqımızın faciələrinə beynəlxalq səviyyədə obyektiv qiymət vermək mümkün olmamışdır. O cümlədən Xocalı faciəsinə də ikili standartlara və Azərbaycan torpaqlarının işğalına beynəlxalq təşkilatların laqeyd münasibətinə görə uzun illər siyasi-hüquqi qiymət verilmədi. Buna baxmayaraq, Azərbaycan dövləti Ermənistanın dinc azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl iş apardı. Bu məsələdə İlham Əliyevin müəyyən etdiyi hücum diplomatiyasının həyata keçirilməsi tezliklə effektiv nəticələr verdi. Qeyd edək ki, Prezident İlham Əliyev Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması üçün davamlı və ardıcıl fəaliyyətin vacibliyi barədə deyib: "Azərbaycanlılara qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini almalıdır".

Bu gün də qanında, canında vətən sevgisi olan hər bir azərbaycanlının qarşısında duran ən əsas vəzifələrdən biri dövlətin bu istiqamətdə həyata keçirdiyi işlərə dəstək verərək Xocalı soyqırımı barədə əsl həqiqətləri dünyaya çatdırmaq, faciəyə beynəlxalq müstəvidə siyasi-hüquqi qiymətin verilməsinə nail olmaqdır.

Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində atılan addımlarda Heydər Əliyev Fondunun müstəsna rolu var. Fond yaradıldığı gündən bütün imkanlarından istifadə edərək Xocalı soyqırımının dünyada təbliğ olunması yönündə ardıcıl, məqsədyönlü və səmərəli tədbirlər həyata keçirməkdədir. Fondun gərgin əməyi nəticəsində dünya ölkələri erməni qəsbkarlarının insanlığa sığmayan qətlləri haqqında daha dolğun məlumatlandırılır.

Xocalı soyqırımının dünyada tanıdılması ilə bağlı "Xocalıya ədalət!" kampaniyası çərçivəsində keçirilən tədbirlər olduqca təqdirəlayiqdir. "Xocalıya ədalət!" kampaniyası Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə başlayıb. İlk gündən başlayaraq kampaniya yüksək templə davam edib və aksiyaya dünyanın əksər ölkələrinin könüllüləri qoşulub.

Xocalı soyqırımının dünya miqyasında tanıdılması sahəsində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də Amerika Birləşmiş Ştatlarının 20-dən çox ştatının icra və qanunvericilik orqanı Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyib.

44 günlük Vətən müharibəsində işğal altında olan torpaqlarını azad edən Azərbaycan xalqı milli maraqlarını təmin etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev bu qələbə ilə Azərbaycan tarixinin şərəfli səhifəsinin, yeni qəhrəmanlıq salnaməsinin müəllifi oldu. Bu qələbə ilə Xocalı şəhidlərinin ruhları təsəlli tapdı. Soyqırımı qurbanlarının qanı yerdə qalmadı, onların qisası döyüş meydanlarında alındı.

Vətən müharibəsindəki qələbə Xocalı soyqırımını da dünyaya daha yaxından tanıdır. Erməni faşizminin iç üzünü göstərən bu hadisə təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir və beynəlxalq hüquqa uyğun olaraq sivilizasiyalı dünya tərəfindən mühakimə olunmalıdır. Xocalı soyqırımında müqəssir olan hər kəs öz cinayətkar əməlinə görə tarix qarşısında mütləq cavab verəcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Parisdə Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilib

**Azərbaycanın Fransadakı səfirliyinin, UNESCO yanında daimi nümayəndəliyinin birgə təşkilatçılığı və Heydər Əliyev Fondunun dəstəyi ilə Parisdə Xocalı soyqırımı qurbanlarının xatirəsi yad edilib.**







AZƏRTAC xəbər verir ki, Azərbaycanın Fransadakı səfirliyinin Mədəniyyət Mərkəzində keçirilmiş tədbirdə səfir Leyla Abdullayeva, UNESCO yanında daimi nümayəndə Elman Abdullayev, Milli Məclisin deputatı, Azərbaycan-Fransa Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Heydər Əliyev Fondunun departament direktoru Soltan Məmmədov çıxış edərək Ermənistanın ölkəmizə qarşı başladığı silahlı münaqişənin ən qanlı səhifəsini - 31 il əvvəl Xocalı şəhərində törədilən soyqırımını təşkil etdiyini bildiriblər. Çıxışçılar bölgədə strateji məntəqə olan Xocalının ermənilər tərəfindən blokadaya alınmasından, soyuq qış gecəsində erməni silahlılarının mülki əhaliyə hücum edərək 613 qadını, uşağı və ahıl insanı vəhşicəsinə qətlə yetirməsindən danışıblar. Dinc sakinlərin girov götürüldüyü, yüzlərlə insandan bu günədək hələ də xəbər olmadığı qeyd edilib.

Səfir Leyla Abdullayeva XX əsrin faciəsi olan Xocalı soyqırımı ilə beynəlxalq və humanitar hüququn müddəalarının kobud şəkildə pozulduğunu bildirərək, dünya mediasında dərc olunan və Xocalı soyqırımında erməni vəhşiliyini aydın şəkildə əks etdirən məqalələrdən sitatlar gətirib. Bildirib ki, Ermənistanın o dövrdəki prezidenti Serj Sarkisyan "Xocalıdan əvvəl azərbaycanlılar düşünürdülər ki, ermənilər mülki insanlara qarşı əl qaldıra bilməzlər. Amma biz bu stereotipi sındıra bildik" deməklə britaniyalı jurnalistə qanlı hadisənin təşkilatçılarından olduğunu etiraf edib. O, Xocalı soyqırımını Fransanın Oradur-sür-Qlan "şəhid qəsəbə"si ilə müqayisə edərək, bu soyqırımının bəşər tarixinin ən dəhşətli faciələrindən biri kimi yaddaşlardan heç vaxt silinməyəcəyini deyib.

Diplomat qeyd edib ki, Xocalının harayı bütün dünyada eşidilməlidir. Məhz buna görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən "Xocalıya ədalət!" beynəlxalq kampaniyasına start verilib və bu kampaniya sayəsində dünyanın 17 ölkəsinin parlamenti, ABŞ-nin 30 ştatı və 2 beynəlxalq təşkilat tərəfindən Xocalı faciəsi soyqırımı kimi tanınıb.

"Ümid edirəm ki, Fransanın hakimiyyət dairələri də ermənilərin mülki insanlara qarşı törətdikləri bu qətliamı tanıyacaq. Cinayətkar cəzalanmadan ədalət bərpa oluna bilməz. Biz intiqam yox, ədalət tələb edirik", - deyə L.Abdullayeva vurğulayıb.

Milli Məclisin deputatı, Azərbaycan-Fransa Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Heydər Əliyev Fondunun departament direktoru Soltan Məmmədov 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistanın azərbaycanlılara qarşı soyqırımı cinayəti törətməsinin fakt və dəlillərlə sübuta yetirilməsindən danışıb. O, Xocalı soyqırımının tanınması istiqamətində atılan addımlardan, Avropa İnsan Hüquqları Məhkəməsinin Xocalının mülki əhalisinin qətliamını "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər" kimi qiymətləndirməsindən söz açıb.

S.Məmmədov bu faciənin dünya miqyasında tanıdılmasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başladılan "Xocalıya ədalət!" kampaniyasının xüsusi rolundan, kampaniyanın strateji məqsədlərindən danışıb. Diqqətə çatdırıb ki, Xocalı Azərbaycan xalqının şəhidlik tarixində misilsiz bir səhifə, eyni zamanda ümumbəşəri cinayət olaraq hər zaman təbliğ ediləcək və öyrəniləcək.

UNESCO yanında daimi nümayəndə Elman Abdullayev erməni silahlılarının Xocalıda insanları məhz azərbaycanlı olduqları üçün qətlə yetirdiklərini diqqətə çatdıraraq, nifrət və ayrı-seçkilikdən uzaq gələcək qurmağın hər kəsin mənəvi borcu olduğunu deyib. Xocalının ölkəmizin tarixində dərin izindən danışan E.Abdullayev bildirib ki, Xocalı qatilləri ədalət məhkəməsi qarşısında cavab verməlidirlər.

Azərbaycanın bütün sahələrdə dinamik inkişafına, ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğu prosesinin sürətləndirilməsinə layiqli töhfə verən Heydər Əliyev Fondunun Xocalı soyqırımı ilə bağlı fotomateriallardan ibarət sərgisi erməni qəsbkarlarının insanlığa sığmayan qətllərini tədbir iştirakçılarına əyani olaraq çatdırıb.

Tədbir Xocalı qurbanlarının xatirəsinə həsr olunan konsert proqramı ilə davam edib. Konsertdə Əməkdar artist, tarzən Sahib Paşazadə, azərbaycanlı skripkaçı Sabina Rakçeyeva, fransız bəstəkar Pyer Tiluanın musiqi qrupu Fikrət Əmirovun, Qara Qarayevin, Xəyyam Mirzəzadə və xarici bəstəkarların əsərlərindən nümunələr səsləndiriblər.

Konsertdə fransız bəstəkar Pyer Tiluanın Xocalı soyqırımına həsr etdiyi "Xocalı 613" kompozisiyası da ifa edilib.

Anım mərasimində Fransada akkreditə olunmuş səfirlər, UNESCO yanında daimi nümayəndələr, Türkiyənin Fransadakı səfiri Ali Onaner, qardaş ölkənin UNESCO yanında daimi nümayəndəsi Gülnur Aybet, diplomatlar, yerli ictimaiyyətin, eləcə də Azərbaycan icmasının nümayəndələri iştirak ediblər.




# XX əsrin faciəsi - Xocalı soyqırımı 31



# Xocalı soyqırımı və Ermənistanın beynəlxalq cinayətləri



## Ermənistanın Xocalıda dinc azərbaycanlılara qarşı beynəlxalq cinayətləri

Ermənistan silahlı birləşmələri Xocalı sakinlərinə qarşı soyqırımı törədərkən 111 nəfəri Xocalıda, mühasirədən çıxıb qaçmağa müvəffəq olmuş Xocalı sakinlərini təqib edərək 16 nəfəri Kətik meşəsində, 130 nəfəri Naxçıvanik yolunda, 23 nəfəri Qaraqaya ətrafında, 23 nəfəri Dəhraz kəndi yaxınlığında, 8 nəfəri Şelli istiqamətində, 6 nəfəri Əsgəran asfalt yolunun 86-cı kilometrində və s. yerlərdə, əsir götürülənlərdən 18 nəfərini isə Əsgəran rayon daxili işlər şöbəsində işgəncə verərək xüsusi amansızlıqla qətlə yetirmişlər. Meyitlərin xarici müayinəsi, məhkəmə-tibb ekspertizalarının rəyləri, mühasirədən çıxmağa müvəffəq olmuş Xocalı sakinlərinin ifadələri ilə ermənilərin və 366-cı alayın hərbi qulluqçularının azərbaycanlılara qarşı törətdikləri ağlasığmaz işgəncə, vəhşilik faktları müəyyən edilmişdir.

Günahsız mülki əhalini özünə hədəf seçən Ermənistanın insanlıq əleyhinə törətdiyi bu cinayət əməli təsadüfi xarakter daşımır, belə əməllərin törədilməsi sistemli xarakter daşıyır və cinayətkar Ermənistan həm işğal zamanı, həm də işğalın davam etdiyi 30 ilə yaxın müddət ərzində mütəmadi olaraq cəbhəyanı ərazilərdə Azərbaycan vətəndaşı olan mülki əhalini, əsasən də qadınları və azyaşlı uşaqları xüsusi qəddarlıqla qətlə yetirmişdir.

Qeyd etmək lazımdır ki, Xocalı soyqırımı beynəlxalq cinayət kimi qəbul edilməlidir. Xocalıda öldürülən 613 nəfər dinc sakindən 63-ü uşaq idi. Bu kütləvi qırğın, vandalizm aktı zamanı 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla qətlə yetirilmiş, başları kəsilmiş, yaxud başlarının dərisi soyulmuş, gözləri çıxarılmış, hamilə qadınlar süngü ilə deşik-deşik edilmişdir. Xəsarət alanlardan 487 nəfəri şikəst olmuşdur ki, onlardan 76 nəfəri azyaşlıdır. 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmişdir. 56 nəfər diri-diri yandırılmışdır.

Ermənistan BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasını ratifikasiya etmiş, lakin buna baxmayaraq, uşaqlara qarşı zorakılıq əməlləri törətməkdən çəkinməmiş, istər müharibə, istərsə də atəşkəs zamanı öz çirkin niyyətlərini həyata keçirmişdir. Ermənistanın Azərbaycanın mülki əhalisinə və mülki obyektlərə birbaşa və qəsdən hücumları beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə 1949-cu il Cenevrə konvensiyaları və ona 1 saylı Əlavənin, həmçinin Uşaqların hüquqlarının və İnsan hüquqlarının müdafiəsi və fundamental azadlıqlara dair Konvensiyanın ciddi şəkildə pozulmasıdır. Buna dünya ictimaiyyəti və BMT-nin üzv dövlətləri tərəfindən layiqli qiymət verilməlidir. Xocalı qətliamı Ermənistanın Azərbaycan xalqına qarşı məqsədyönlü soyqırımı siyasətinin tərkib hissəsidir və bu soyqırımı beynəlxalq cinayət kimi qəbul edilməli, insanlığa qarşı ən ağır cinayətlərdən biri kimi qiymətləndirilməlidir.

Beynəlxalq hüquqa görə soyqırımı sülh və insanlıq əleyhinə yönələn əməldir və ən ağır cinayət hesab edilir. Bu barədə BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi qəbul edilmiş və 1951-ci il yanvarın 12-dən qüvvəyə minən "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması" konvensiyasında soyqırımı cinayətinin hüquqi əsası təsbit olunmuşdur.

30 ildən artıq davam edən və bütün dünyanın gözü qarşısında dövlət terrorizmi siyasəti həyata keçirən Ermənistanın hərbi təcavüzü nəticəsində 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək, 44 gün ərzində mülki insanlardan 90 nəfərdən çoxu həlak olmuş, onlardan 30 nəfərdən çoxu uşaqlar və qadınlardır, 400 nəfərdən çox, o cümlədən 100-dən artıq qadın və 30-dan çox uşaq isə yaralanmışdır.

## Xocalı soyqırımının dünyaya çatdırılması və beynəlxalq aləmdə soyqırımı aktı kimi daha geniş tanınması

Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının əsl mahiyyəti yalnız Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə yenidən qayıtdıqdan sonra açıqlanmışdı. 1994-cü ilin fevralında isə Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermişdir.

Hazırda bu soyqırımını törədənlərin ifşa olunması və beynəlxalq ictimaiyyətin geniş məlumatlandırılması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində davamlı olaraq addımlar atılmışdır.

Bu baxımdan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın gördüyü işlər olduqca təqdirəlayiqdir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində çox sistemli və ardıcıl fəaliyyət göstərir. Bununla yanaşı, 2008-ci il mayın 8-də Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin işğal edilməsinin ildönümündə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası təsis edilmiş və 2009-cu ilin fevralından bu kampaniyaya start verilmişdir.

Soyqırımının tanıdılması və qətliama siyasi qiymət verilməsi istiqamətində görülən işlər artıq daha ciddi nəticələr verməkdədir. Belə ki, ABŞ-nin 25-dən çox ştatının, 15-dən çox ölkənin qanunverici orqanı, eləcə də İslam Əməkdaşlıq Təşkilatı tərəfindən qəbul edilən sənədlərdə Xocalı faciəsi soyqırımı aktı və insanlığa qarşı cinayət kimi tanınmış və bu proses davam edir.

## Azərbaycan Prezidentinin tarixi qələbəni şərtləndirən qətiyyətli mövqeyi

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməyə başlayanda xalqımız bütünlüklə dövlətimizin başçısının ətrafında səfərbər oldu. Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi uğrunda gedən döyüşlər, qüdrətli ordumuzun şanlı tarix yazaraq düşmən üzərindəki sarsıdıcı zərbələri, eləcə də işğal altında olan şəhərlərimizin, yaşayış məntəqələrimizin, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin işğalçılardan azad edilməsi xalqımızda böyük inam və ruh yüksəkliyi yaratdı.

Rəşadətli Azərbaycan Ordusu Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ildən artıq işğal altında qalan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı uğurlu əks-hücum əməliyyatları həyata keçirməklə yanaşı, düşmənin bu illər ərzində yaratdığı "yenilməzlik" mifologiyasını 44 gün ərzində darmadağın etdi. Bununla yanaşı, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələr, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, davam edən hərbi əməliyyatlarla bağlı tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanaraq tutarlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Həmçinin bu müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi.

Sonda bu, informasiya müharibəsində də Azərbaycanın haqlı mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi, uzun illər Ermənistanın yürütdüyü faşist ideologiyası, xalqımıza qarşı etnik təmizləmə, soyqırımı, dövlət terrorizmi və işğalçılıq siyasətinin, eləcə də erməni yalanlarının dünya miqyasında ifşası istiqamətində əhəmiyyətli rol oynadı, tarixi ədalətin zəfər çalmasını şərtləndirdi. Xüsusilə Prezident İlham Əliyevin 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısı kimi mühüm beynəlxalq platformada qətiyyətlə söylədiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" devizi bir ildən sonra, 44 gün ərzində reallığa çevrildi, xalqımıza böyük sevinc yaşatdı.

Azərbaycan Prezidenti deyib: "Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq".

Azərbaycan Prezidenti bildirmişdir ki, əgər kimsə Ermənistanda revanş haqqında düşünürsə, bizə qarşı hər hansı bir təxribat törədilərsə, cavabımız çox sərt olacaq və yenə də acı məğlubiyyətlə üzləşəcəklər.

Bu baxımdan Ermənistanda revanş haqqında düşünənlər Azərbaycanın dünyaya nümayiş etdirdiyi XXI əsrin müharibə nümunəsini unutmasınlar. Dövlət başçısı birmənalı olaraq bildirib ki, Azərbaycanın işi haqq işidir və Qarabağ Azərbaycandır!

***Elçin ƏHMƏDOV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Qarabağ İrsini Araşdırma Mərkəzinin rəhbəri, beynəlxalq münasibətlər üzrə professor, siyasi elmlər doktoru***

*(əvvəli qəzetin 25 fevral nömrəsində)*

# Xocalı faciəsini törədənlər ədalət məhkəməsi qarşısında cavab verməlidirlər

## Azərbaycan Prezidentinin qətiyyəti göstərir ki, o gün çox da uzaqda deyil

**İki ildən artıqdır ki, xalqımız Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və şanlı ordumuzun şücaəti sayəsində 30 ilə yaxın erməni işğalına məruz qalmış torpaqlarımızın azad edilməsinin qüruru, Qarabağda aparılan bərpa, tikinti-quruculuq işlərinin ovqatı ilə yaşayır. Ancaq nə qədər sevincli, duyğulu olsaq da, Ermənistan silahlı qüvvələrinin törətdikləri vəhşilikləri, xüsusən də Qarabağdakı qətliamları, Xocalı soyqırımını bir an da olsun yaddaşlardan silmək mümkün deyil.**

31 il əvvəl Ermənistan silahlı qüvvələri keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı motoatıcı alayı ilə birləşərək XX əsrin Xatın, Sonqmi faciələrini belə geridə qoyan Xocalı soyqırımını törədiblər. 1992-ci il fevralın 25-də axşam erməni hərbi birləşmələri, 366-cı alay (üç batalyondan ikisi tam tərkibdə, biri isə qismən), habelə xarici ölkələrdən gətirilmiş muzdlu quldurlar beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq Xocalıya hücum edib, dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutdular. Erməni daşnakları nə uşağa, nə böyüyə, nə qocaya, nə də qadına aman vermədən dinc əhaliyə vəhşicəsinə işgəncə verdilər, güllələdilər, əsir götürdülər, onların pul və qızıl-zinət əşyalarını qarət etdilər. Vandallar 7 min nəfərlik əhalisi olan Xocalı şəhərini odlara qaladılar.

Hadisələri ilk olaraq videolentə köçürən Azərbaycan jurnalistləri Seyidağa Mövsümlü və Çingiz Mustafayevin televiziya kanallarında dəfələrlə görüntülənən çəkilişlərindən də məlum oldu ki, öldürülənlər içərisində 2 yaşından 15 yaşına qədər olan xeyli sayda uşaq da var.

Xocalı qətliamı Ermənistanın uzun illərdən bəri Azərbaycana qarşı həyata keçirdiyi planlaşdırılmış etnik təmizləmə və təcavüz siyasətinin tərkib hissəsi idi. Bu dəhşətli günləri xatırlayarkən Azərbaycan Prezidenti İlham Əliyevin 11 il əvvəl qətiyyətlə dediyi, 2020-ci ilin sentyabr-noyabr aylarında reallığa çevrilən bu sözləri yada düşür: "Sizi əmin etmək istəyirəm ki, Xocalı soyqırımını həyata keçirənlər gec-tez ədalət məhkəməsi qarşısında cavab verərək layiqli cəzalarını alacaq, şəhidlərimizin qanı yerdə qalmayacaqdır". Elə də oldu. Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti sayəsində 2020-ci ilin payızında şanlı Azərbaycan əsgəri 44 günlük Vətən müharibəsində işğalçı Ermənistan ordusunu darmadağın edərək, ərazilərimizin işğalına son qoyaraq bütün şəhidlərimizin qisasını aldı.

Xocalı qətliamı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti tərəfindən mütəmadi olaraq bütün zəruri addımlar atılır, ən ali qurumlara müraciətlər olunur. Bu istiqamətdə məqsədyönlü fəaliyyət Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra başlanıb. Faciəyə ilk dəfə hüquqi-siyasi qiymət də məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən verilib. Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul edib, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayaraq, beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırıb.

Bu siyasət dövlət başçısı İlham Əliyev tərəfindən də davam etdirilir. Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələri çərçivəsində haqq səsimizin dünyaya çatdırılması və Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün məqsədyönlü fəaliyyət göstərilmiş və bu gün də davam etdirilir.

2008-ci ildən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyasına start verilib. 15 ilə yaxındır ki, bu kampaniya çərçivəsində soydaşlarımızı təmsil edən çoxsaylı vətəndaş cəmiyyəti institutları, gənclər təşkilatları və diaspor qurumları hakimiyyət strukturları ilə birlikdə səmərəli fəaliyyət göstərirlər. Yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur və dünya ictimai fikri Xocalı həqiqətlərini qəbul etməyə başlayır. Dünyanın 10-dan çox ölkəsi parlament səviyyəsində, eləcə də ABŞ-nin 25-dən artıq ştatı, İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyır və bu proses davam etməkdədir.

Azərbaycan Prezidentinin 44 günlük Vətən müharibəsində qazandığı tarixi zəfər xalqımızda Xocalı soyqırımını törədənlərin - sarkisyanların, koçaryanların, balayanların və əlləri günahsız azərbaycanlıların - uşaqların, qadınların, qocaların qanına batmış digər cinayətkarların ədalət məhkəməsi qarşısında cavab verəcəklərinə inamı daha da artırıb. Azərbaycan Prezidentinin qətiyyəti, hadisələrin gedişi göstərir ki, o gün çox da uzaqda deyil.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***






# XX əsrin faciəsi - Xocalı soyqırımı 31



*Əvvəli 1-ci səh.*

# Xocalının qisası döyüş meydanında alındı

## Müzəffər Ali Baş Komandan, rəşadətli ordu və əzmkar xalq bunu ləyaqətlə yerinə yetirdi




### Qəlbimizdə alışan bir qərinəlik intiqam alovu

Xalqımız illər boyu 26 fevral 1992-ci ildə Xocalıda yaşanan müsibətə, qəddarlıqla öldürülən nənə-babalara, ana-atalara, oğul-qızlara, qardaş-bacılara, ana bətnində süngülənən körpələrin yarımçıq taleyinə ağladı, gözləri qan-yaş tökdü. Ötən illər ərzində biz Xocalı faciəsinin qisasını alacağımıza dair içdiyimiz intiqam andı sayəsində qəddimizi bükən kədər yükünə dözüm gətirə bildik. Elə qəlbimizdə alışan bir qərinəlik qisas alovunun atəşi ilə də 44 günlük müharibədə düşməni məhv edərək külünü göyə sovurduq. Atəşdən yoğrulmuş, od ürəkli, dəmir biləkli Odlar yurdunun cəsur oğulları Xocalının qisasını qiyamətə qoymadılar. Vətən müharibəsində azman Azərbaycan oğulları yalın əllə Xocalıda əliyalın insanlarımızın qatilinə çevrilən qaniçən düşmənlərin nəfəslərini kəsdilər.

Şücaətli igidlərimiz ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman oğul və qızlarımızın, erməni faşizminin qurbanı olan günahsız mülki vətəndaşlarımızın qisasını alaraq, onların ruhlarını şad etdilər.

### Qan yaddaşımız

Hələ Xocalı soyqırımına qədər Azərbaycanın Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanis Ayrım kəndinin, Dağlıq Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilmişdi.

1992-ci il fevralın 17-də Ermənistan silahlı qüvvələrinin və Xankəndidəki 366-cı motoatıcı alayın Xocavənd rayonunun Qaradağlı kəndində törətdiyi qırğın nəticəsində kəndin hər 10 sakinindən biri şəhid olub, 104 nəfər və müdafiə dəstəsinin 15 üzvü əsir götürülüb, onlardan 80 nəfəri qətlə yetirilib. Öldürülənlərdən 10-u qadın, 8-i uşaqdır. Ümumilikdə Qaradağlı 1988-1992-ci illərdə 305 dəfə düşmən hücumuna məruz qalmışdı. Bu, Xocalı soyqırımına aparan qanlı yolun başlanğıcı idi.

Münaqişənin əvvəlindən - 1991-cı ilin oktyabrından Xocalı mühasirəyə alındığı üçün şəhərə gələn bütün avtomobil yolları bağlanmışdı, yeganə nəqliyyat vasitəsi yalnız vertolyot idi. Xocalıya sonuncu helikopter 1992-ci il yanvarın 28-də enmişdi. Yanvarın 2-dən etibarən isə şəhərin elektrik enerjisi təchizatı dayandırılmışdı. Təcrid vəziyyətinə düşmüş xocalılılar belə bir şəraitdə ancaq öz qəhrəmanlıqları və şəhər müdafiəçilərinin cəsurluğu sayəsində yaşayıb və müdafiə olunmuşdular.

Fevralın ikinci yarısından başlayaraq Xocalı Ermənistan hərbi birləşmələri tərəfindən tam mühasirəyə alınmışdı. Dinc sakinlərin dəstə halında və ya təklikdə mühasirədən çıxmaq üçün göstərdiyi bütün cəhdlərin qarşısı alınmışdı.

Xocalı hər gün toplardan, ağır texnikadan atəşə, erməni dəstələrinin silahlı həmlələrinə məruz qalırdı. 1992-ci il fevralın 18-də artıq Xocalı istiqamətində olan yaşayış məntəqələri azərbaycanlılardan təmizlənmiş, yüksək mövqelər ermənilər tərəfindən tutulmuşdu. Şəhərdə vəziyyət getdikcə ağırlaşırdı. Buna baxmayaraq, ovaxtkı respublika rəhbərliyi Xocalının xilası üçün heç bir iş görmürdü. Dörd bir tərəfdən mühasirədə olan köməksiz Xocalı düşmənlə təkbaşına mübarizə aparmaq məcburiyyətində qalmışdı.

### Xocalı müsibəti

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri sovet ordusunun 366-cı alayının zirehli texnikası və hərbi heyətinin köməyi ilə Xocalıya hücum etdi. Şəhərə hücum toplardan, tanklardan, "Alazan" tipli zenit raketlərdən açılan 2 saatlıq atəşdən sonra başlanmışdı. Xocalıya bir neçə istiqamətdən hücum edildiyindən əhali Əsgəran istiqamətində qaçmağa məcbur olmuşdu. Tezliklə aydın olmuşdu ki, bu, bir tələ, amansız hiylə imiş. Naxçıvanik kəndi yaxınlığında əhalinin qarşısı erməni silahlı dəstələri tərəfindən kəsilmiş və onlar gülləbaran edilmişdilər.

Qaniçən ermənilər qaçıb canlarını qurtarmaq istəyən silahsız mülki insanları güllələyir, ələ keçirdiklərini vəhşicəsinə qətlə yetirirdilər. İnsanlara dəhşətli işgəncələr verir, diri-diri yandırır, baş dərisini soyur, qulaqlarını və digər orqanlarını kəsir, gözlərini çıxarır, hamilə qadınların qarınlarını deşir və sözlə ifadə edilməsi çətin olan digər vəhşiliklər törədirdilər.

1992-ci il fevralın 26-da Xocalıda 613 nəfər qətlə yetirildi, 1275 nəfər girov götürüldü, 150 nəfərin taleyi hələ də məlum deyil. Qətlə yetirilənlərin 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri ahıl insandır. Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirib. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, insanlar diri-diri yandırılıb, onlara ağlasığmaz işgəncələr verilib.

### Xocalı soyqırımını nə üçün törətdiklərini Serj Sarkisyan belə etiraf edib

Ovaxtkı Ermənistan prezidenti, müharibə cinayətkarı Serj Sarkisyan 2000-ci ildə britaniyalı jurnalist Tomas de Vaala müsahibəsində Xocalıdakı qanlı əməlləri nə üçün törətdiklərini vəhşiliyə xas qürrə ilə belə etiraf edib: "Xocalı hadisələrinədək azərbaycanlılar elə bilirdilər ki, biz onlarla zarafat edirik. Onlar elə düşünürdülər ki, ermənilər mülki əhaliyə qarşı əl qaldıracaq insanlar deyil. Biz bu anlayışa (stereotipə) son qoyduq".

Jurnalistin "Yüzlərlə insanın ölümünə görə təəssüflənirsinizmi?" sualına isə cavab olaraq müharibə cinayətkarı vicdan əzabı çəkmədən kinlə demişdi: "Heç bir peşmanlığım yoxdur".

Erməni vandalları Xocalı soyqırımını törətməklə azərbaycanlıların ürəyinə qorxu salmaq və bununla da Azərbaycan ərazilərinin sonrakı işğalını və etnik təmizlənməsini özləri üçün daha asan hala gətirmək kimi məkrli niyyət güdmüşdülər.

1992-ci il martın 14-də "Le Mond" qəzeti (Paris) yazırdı: "Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında skalpları götürülmüş, dırnaqları çıxarılmış 3 nəfəri görmüşlər. Bu, azərbaycanlıların təbliğatı deyil, bu reallıqdır".

İngiltərənin "Fant men nyus" teleşirkətinin əməkdaşı (hadisə yerində olmuşdur) R.Patrik isə xocalılılara qarşı törədilən qətliamdan dəhşətə gələrək demişdir: "Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz".

### Beynəlxalq aləm Xocalı soyqırımına ədalətli qiymət verməlidir

Xocalı soyqırımına ilk dəfə hüquqi-siyasi qiyməti Ümummilli Lider Heydər Əliyev verib. Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul edib. Heydər Əliyev 1994-cü il martın 1-də Xocalı soyqırımı ilə bağlı xüsusi fərman imzalayıb, sonrakı dövrdə Milli Məclisin qərarı ilə 26 fevral "Xocalı soyqırımı və milli matəm günü" elan olunub.

"Xocalı faciəsi erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi" deyən Prezident İlham Əliyevin birbaşa səyi nəticəsində bu gün dünyanın bir sıra dövlətləri Xocalı qətliamını əsl soyqırımı kimi tanıyır və qəbul edir.

Bu dəhşətli soyqırımının dünyada tanıdılmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın da müstəsna xidmətləri var.

### Qisas zəfərlə alındı

Faşist xislətli, xain və gücləri yalnız əliyalın insanlara çatan qaniçən ermənilər Xocalı soyqırımını törətməklə cəsur Azərbaycan xalqının gözünü qorxutmaq istəyirdilər, amma bu mənfur niyyətləri gözlərində qaldı.

Düzdür, 1992-ci il fevralın 26-da erməni cəlladları tərəfindən törədilən Xocalı soyqırımı hər birimizin qəlbini dərindən yaraladı, amma Azərbaycan xalqının milli iradəsini, işğalla barışmaz mövqeyini qətiyyən sarsıda bilmədi.

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı azadlığına qovuşdurdu, Vətən uğrunda şəhid olan qəhrəman oğul və qızlarımızın, Xocalıda və digər ərazilərimizdə erməni qətliamına məruz qalan mülki vətəndaşlarımızın qisasını döyüş meydanında aldı.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin vurğuladığı kimi: "Biz onların cavabını döyüş meydanında verdik, bütün şəhidlərimizin qisasını aldıq, onların qanları yerdə qalmadı".

Artıq üç ildir ki, biz əllərimizdə al qırmızı qərənfillər Xocalı soyqırımının daşlaşmış əksi - "Ana harayı" abidəsini, Şəhidlər xiyabanını, bölgələrimizdəki şəhid məzarlıqlarını alnıaçıq, üzüağ, şəhidlərimizin qisasının yerdə qalmamasından duyduğumuz qürur hissi ilə ziyarət edirik.

Ruhunuz şad olsun, uca şəhidlərimiz!

Əziz xatirənizi ehtiramla yad edir, uca şəhadət məqamınız qarşısında baş əyirik.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Həyatın ən çətin anı







Ağdam Cümə məscidi...

Üst-üstə yığılan meyitlər, doğmasını axtaran adamlar, başının dərisi soyulmuş, gözləri çıxarılmış, işgəncələr nəticəsində üz-gözü tanınmaz hala salınmış cəsədlər, didilmiş sifətlər, qolu-qıçı kəsilmiş, sinəsi güllələrdən dəlmə-deşik edilmiş qadın, qoca və uşaqlar...

Soyuq fevral gününün ən şaxtalı küləyi orda əsirdi...

İlahi, məsciddə yuyata götürülən meyitlər nə hala salınmışdı? Gözü oyulan, bəbəyində siqaret söndürülən də var idi, başı-beyni dağılanı da...

Bəlkə də ən çətin iş bu mənzərənin seyrçisi olmaq idi...

Hələ onları lentə almaq, fotoobyektivin yaddaşına köçürmək, tarixə çevirmək ondan da ağır idi!

Öz isti yuvasından çıxarılan, dağlara-daşlara salınan əliyalın, dinc sakinlərin, məsum körpələrin, günahsız anaların sifətinə necə baxasan? Onların üzünə baxa-baxa fotoobyektivin düyməsini necə basasan?

Çətin idi, çox çətin!

Amma etməli idi, eləməli idi...

Bəs onda dünən axşam Qarabağ bölgəsinə ezamiyyətdən sonra Bakıya çatıb həmin gecə qatarla bura niyə gəlmişdi?

"Fevralın 24-də AZƏRTAC-da ilk dəfə olaraq ezamiyyətə göndərildim. Əvvəlcə Füzuliyə gedib çəkilişlər apardım, elə həmin gün də oradan Şuşaya getdim. Şuşada da erməni atəşi nəticəndə dağılmış evləri, xəstəxanada müalicə alan yaralı əsgərləri, zirzəmilərdə atəşdən gizlənən şəhər sakinlərini çəkdim, başqa çəkilişlər də apardım. Şəhərdə olarkən batalyon komandiri Ramiz Qəmbərovla rastlaşdım, onun ilk və son dəfə şəklini çəkdim, hərbçiləri, şəhərdə olan vəziyyəti lentə aldım, sonra Laçına üz tutdum. Fevralın 26-da üçgünlük ezamiyyətim başa çatdığı üçün Bakıya qayıtdım... Bakıya çatanda həmin gecə Xocalıda baş verən hadisələr haqqında eşitdim və dərhal Bakı-Ağdam qatarı ilə geri qayıtdım...", - deyə fotomüxbir, Əməkdar jurnalist İlqar Cəfərov xatırlayır.

Ağdam Cümə məscidi nəhəng bir meyitxananı xatırladırdı. Məlumata görə, məsciddə Xocalıda şəhid olan 335 sakin yuyata götürülmüşdü. O, özünü toplayıb içəri daxil olaraq bir neçə kadrı lentə alıb: "Sonra özümü pis hiss etdiyimə görə bayıra çıxdım. Bu proses bir neçə dəfə təkrar olundu, çünki bir neçə dəqiqə orada qalıb baş verənləri görmək, onları fotoobyektivin yaddaşına köçürmək ağır və əzablı bir iş idi. Əslində, məscidin ətrafında da fərqli mənzərə yox idi. Əzizlərinin, doğmalarının sorağını gözləyən adamlar, tabuta qoyulub dəfnə aparılanlar, sinə döyən, şaxsey vuran qadınlar, bir gecədə dünyası dağılan, hər şeyi yerləyeksan olan, üzlərində kədər oxunan, gözü yaşlı sakinlər...".

AZƏRTAC-ın təcrübəli fotomüxbiri Ağdamda olarkən həmin günlərdə SSRİ mərkəzi televiziyasının Azərbaycan üzrə müxbiri Mayis Məmmədov və operator Nadir Zeynalov, hərbi operator Seyidağa Mövsümlü ilə də rastlaşıb. Üstündən xeyli vaxt keçsə də, o, 1992-ci ilin soyuq fevralını ən boz-bulanıq rənglərlə xatırlayır: "O ağır günlərdə insanların üz-gözündə kədərin ən acı çalarları dolaşırdı. Elə bil nəhəng bir rəssam fırçası hər şeyin üzərini qara rəngə boyamışdı. Hətta mənə elə gəlirdi ki, adamların çoxunun hissi, duyğusu da yoxdur. Baxırsan ki, ayaq üstədir, gedir-gəlir, baxır, görür, amma heç nə hiss eləmir. Bax, mənim yaddaşımda elə bir təəssürat qalıb. Görünür ki, o da baş verən hadisələrin təsiri nəticəsində idi".

İlqar səyyar cərrahi əməliyyat vaqonunu da xatırlayır, hətta həmin vaqonda da çəkiliş apardığını deyir: "Heç yadımdan çıxmır, vaqonda Məleykə adlı tibb bacısı var idi, onun qardaşı da şəhid olmuşdu, ancaq yaralıları həyata qaytarmaq, onlara yardım göstərmək üçün həkimlərlə birlikdə çox ciddi səy göstərirdi. Sonralar onun daha bir qardaşının da şəhid olduğunu eşitdim. Əldə etdiyim məlumata görə, artıq onun özü də həyatda yoxdur...".

Müxtəlif beynəlxalq fotomüsabiqələrin qalibi olan İlqar Cəfərovun Xocalı soyqırımını əks etdirən bir neçə şəkli Rusiyada çıxan "İzvestiya" qəzetində dərc olunub. Onun müəllifi olduğu həmin fotolardan kitab, jurnal və qəzetlərin nəşrində indiyədək geniş istifadə olunur.

İlqar Cəfərovun obyektivin yaddaşına köçürdüyü həmin kadrlar indi Xocalı soyqırımını canlandıran ən dəyərli fotolardır. Üstündən illər keçib, yenə də çox illər keçəcək, amma həmin şəkillər həmişə öz dəyərini saxlayacaq...

Həmin məşum və dəhşətli günlərin xatirəsi kimi...

Əbədiyyət üçün...

Tarix üçün...








# XX əsrin faciəsi - Xocalı soyqırımı 31



# Səadətini Xocalıda itirdi

**Qarlı, şaxtalı gecə, amansız hücuma məruz qalmış xocalılılar. Gecə ilə evlərindən didərgin salınan, əliyalın əhali.**

Həmin gecə ermənilər üç istiqamətdən hücum etdiklərinə görə xocalılılar xilas üçün Qarqarçay istiqamətinə üz tuturlar. Amma qarşıda onları düşmən pusqusu gözləyirdi. Ermənilər onlara aman verməyərək bəzilərini oradaca qəddarcasına öldürür, bir qisminə işgəncə verirdilər.

Həyat yoldaşı ilə xilas olmağa çalışanlardan biri də Valeh Hüseynov idi. Valeh 1968-ci ildə Xocalıda doğulub, orada boya-başa çatıb, təhsil alıb. Sonra







Mingəçevirdə musiqi ilə məşğul olan Valeh Xocalının başının üstünü təhlükə alanda geri qayıdıb, Səadət adlı xanımla ailə qurub.

Strateji mövqedə yerləşən Xocalının uzun müddət ermənilərin diqqət mərkəzində olduğunu deyir Valeh Hüseynov. Qeyd edir ki, keçmiş Dağlıq Qarabağı tən ortadan bölən Xocalıdan digər rayonlara keçib gedirmişlər.

Valehin Xocalıda çoxlu qohum-əqrabası yaşayırmış. O, həmin günləri belə xatırlayır: "Ermənilər sovet əsgərləri ilə birgə xocalılılardan silahları yığıb aparırdılar. Həmin vaxtlarda Xocalı tam silahsız qalmışdı. Yalnız son 5-6 ayda özünümüdafiə batalyonu yarandı. O vaxt dövlət tərəfindən az sayda avtomat silahlar verilirdi, özümüz gedib ruslardan alırdıq. Amma silahımız olanda da güllə çatmırdı. Ermənilər pulemyotla atəş açanda biz quş tüfəngi ilə cavab verirdik. Ermənilər topa, raketə keçəndə bizə avtomat gəldi. Ermənilər 366-cı motoatıcı alayın nə qədər silahları vardısa, hamısından istifadə edirdi. Bizdə heç nə yox idi, heç bir kömək yox idi. Camaat öz gücünə nəsə alırdı ki, özünü, evini qoruya bilsin. Amma alınmırdı, çünki haradan güllə atardıqsa, ermənilər oranı minaatanla vururdu".

## Yeganə çıxış yolu - Qarqarçay-Kətik meşəsi

Sakinlər ermənilərin Xocalıya hücum planları olduğunu bilsələr də, ozamankı iqtidar əhalini arxayın salırdı ki, belə şey yoxdur. Amma arxayın salınan sakinlər nə bilərdilər ki, qış gecələrinin birində vəhşiləşmiş, insanlıqdan çıxmış ermənilər şəhərə hücum edəcəklər.

Növbə ilə postda xidmətdə olanlardan biri Valeh olsa da, həmin axşam o, evdə idi. Valeh Hüseynov axşam saat 11-in yarısında qəflətən hər tərəfdən atəş səsləri gəldiyini və şəhərin atəşə tutulduğunu eşidir: "Yoldaşımla oturmuşduq. Eyni vaxtda hər tərəfdən bir komanda ilə atəş başladı. Raketlər, ardınca toplar, daha sonra tanklar. Məcbur olub evdən çıxdıq. Əmimgil tərəfə gəldik. Orada küçə döyüşləri başladığı üçün Xocalının ayağında Kətik meşəsi istiqamətinə üz tutduq. Çünki ayrı çıxış yolumuz yox idi. Ancaq dağa çıxmalı və Ağdam istiqamətinə getməliydik".

Xilaslarını meşədə görən xocalılılar Qarqarçayı keçməli idilər. Amma çaydan keçmək qadınlar, uşaqlar, yaşlılar üçün çətinlik yaradırdı. Buna görə cavanlar onlara yardım edərək bir-bir çaydan keçirdilər. Valeh də çox sayda insanın çaydan keçməsinə yardım edir.









Valeh Hüseynov o dəhşətli gecəni, şaxtada soyuqdan ölən insanları belə xatırlayır: "Meşədə kimi şaxtadan donub ölür, kimi yeriyə bilmir, kiminin ürəyi partlayır, kiminə güllə dəyir..."

Çünki düşmən xocalılıların yalnız bu yoldan istifadə edəcəyini qabaqcadan bilirdi, buna görə də pusqu qurmuşdular. Meşədən çıxan hər kəs gülləyə tuş gəlirdi.

"Əsgərana - dağın döşünə çatdıq. Orada təpənin üstünə çıxıb bir tərəfdən ermənilərin qarşısını almaq istədik. Səadətə dedim ki, camaatla getsin, biz arxadan gəlib onlara çatarıq. Ağdamın kəndindən insanları qarşılayırdılar, amma ora 2-3 kilometr məsafə var idi. Onlar getdi, biz də təpənin başına çıxdıq. Sonra atışa-atışa gəlib çıxdım Ağdamın Şelli kəndinə. Səadəti camaatın içində görmədim. Mənə dedilər ki, qaldı orada, gələ bilmədi". Ömür-gün yoldaşının meşəlikdə qaldığından xəbər tutan Valeh geri qayıdır. Səadətin digər Xocalı sakinləri ilə birlikdə xilas olmağa çalışdığını görür.

Valeh onları Qara qayanın yanına qədər gətirə bilir. Ərazinin relyefi, eyni zamanda ermənilərin pusqularına görə ayaqüstə hərəkət etmək mümkün olmadığından sürünə-sürünə ora qədər gəlib çıxa bilirlər. Ora çatanda Valehin yanındakı gənc Səlimin də patronu qurtarır.

Valeh qarşısında qəflətən peyda olan erməniyə ov tüfəngindən atəş açmaq istəsə də, içinə su dolmuş tüfəngdən atəş açılmır. Elə bu vaxt Səadətin qışqırığı eşidilir: "Gördüm başını qaldırıb üzümə baxır. Dedim nə olub? Cavab vermədi. Yaxınlaşdım ki, onu özümə tərəf qabağa çəkim, gördüm böyründən əlimə istilik gəldi. Qan idi. Ona güllə dəymişdi. Orada gözümün içinə baxa-baxa, danışmadan şəhid oldu Səadət. Ondan sonra çox adam gəldi keçdi, mənə nə qədər dedilər ki gedək, getmədim. İki yolum var idi, ya ölmək, ya da Səadətin meyitini oradan çıxarmaq. Onsuz da mən ölmüş bir insan idim".

Səadətsiz getmək istəməyən Valeh mühasirəyə düşənəcən orada qalır.

## Erməni girovluğunda

Ermənilər yerə yıxılan Valehi döyəndən sonra girovların hamısını Qarqarçaya atıb orada saxlayırlar. Daha sonra onları Əsgəranın polis şöbəsinə aparırlar: "Məni Əsgəranda kameraya saldılar, orada ermənilər yığışmışdı. Hamısının əlində stol ayaqları var idi. Biri zərbəni başımdan vurdu. Huşum getdi. Həmin yaram indi də ağrıyır. Oyananda gördüm ki, məni başqa kameraya salıblar, bədənim işləmir, hər yerimi qırıblar. Yanımızda girovları güllələyirdilər, ölənləri hara apardıqlarını bilmirdik", - deyir Valeh Hüseynov.

Onun musiqiçi olduğunu öyrənən ermənilər daha ağır işgəncələrə əl atırlar - barmaqlarını qırıb dırnağını çıxarırlar. Yalın əllə aşmış isti sobanı düzəltməyə məcbur edirlər, amma əllərini qaynar sobadan çəkməyə qoymurlar: "Əlimin içini bütün yandırdılar. Dırnağımı çıxarmaqları, barmaqlarımı qırmaqları sırf musiqiçi olduğuma görə idi. Əllərimi də tam yandırandan sonra dedilər ki, indi çala biləcəksənmi Qarabağ şikəstəsini? Dırnağımı çıxaranda huşum getmişdi. Özümə gələndə bütün bədənimin ağrısı yaddan çıxmışdı, ancaq əlim ağrıyırdı".

Sonra Valehi Ağdamla Əsgəranın arasındakı kəndə aparırlar. O, həmin günləri belə xatırlayır: "Orada məni zirzəmiyə saldılar. Əvvəl post olmuşdu, üstünü torpaqla örtmüşdülər və ora gələn bilmirdi ki, içəridə nəsə var. Mənim hesablamalarıma görə, martın 6-sı idi. Allahverdi Bağırovun dəstəsi Əsgərana hücum etdi, atışma səsini eşidirdim. Bu vaxt ermənilərdən biri məni öldürmək istəyəndə digəri dedi ki, atma, yaxındadılar, güllənin səsini eşidəcəklər. Məni avtomatın qundağı ilə vurdular, huşum getdi. Altı gün orada çox pis vəziyyətdə qaldım. Martın 12-də gəlib gördülər ki, sağam, şoka düşdülər. Deyirdilər ki, sən nə möhkəm insansan, ölmürsən. Məni sürüyə-sürüyə apardılar çölə, 50-60 metrlik təpədən atdılar aşağı. Yumalana-yumalana təpənin ətəyində arxın içinə düşdüm. Balaca arx idi, amma o qədər taqətdən düşmüşdüm ki, içindən çıxa bilmirdim. Çətinliklə arxdan çıxandan sonra gecəni orada qaldım. Elə bildilər ölmüşəm. Səhər yuxarıdan baxanda gördülər ki, tərpənirəm. Gəlib məni götürdülər, dedilər sən ölmürsən? Yenidən Əsgərana gətirdilər".

Valeh bu dəfə qohum-tanışlarını - həyat yoldaşının əmisi Məhəmməd və qonşuları Ələmdar kişini girovluqda görür. Amma onlar ağır işgəncələrə məruz qaldığına görə əvvəl Valehi tanımırlar. "Girovlara elə çörək verirdilər ki, onu ac itə atsan, yeyə bilməzdi. Ermənilər vəhşiləşmişdilər. Elə davranırdılar, elə bil qarşılarındakı insan deyil", - deyə o günləri belə xatırlayır Valeh.

"Bir gün elə möhkəm titrəyirdim ki, əlimi qaldırıb sinəmin üstünə qoymağa taqətim yox idi. Aclıq, susuzluq, işgəncə... Kamerada tək idim, gecə səs gəldi. Gözümü aça bilmədim. Gördüm ki, biləklərimdən, bir də ayaqlarımdan tutub sıxırlar, amma ağrımır. Bir-iki dəqiqə sıxandan sonra iki addım səsi eşitdim. Gözümü açanda heç kim yox idi. Titrətməm keçmişdi. Yuxuya getdim, sonra yenə ayaq səsinə oyandım. Gördüm ki, qarşımda ağ saqqalını tumarlayan biri dayanıb. Gözümün içinə baxıb dedi ki, qorxma, darıxma, səni iki günə göndərəcəm gedəcəksən. Sonra yenə yuxuya getdim".

Səhəri gün ermənilər Valehi öldürmək qərarına gəlirlər. Axşamüstü içəri daxil olan üç erməni öldürəcəkdi onu. Təxminən iki metr məsafədən nişan alırlar. Elə bu an Valeh vaxt istəyir. Ayın tarixini öyrənib, ixtiyarsız səhəri günün doğum günü olduğunu deyir: "Yalan deyirdim, mən avqustun 29-u doğulmuşam, şəhadətnaməmdə isə sentyabrın 1-i qeyd olunub. Heç ağlıma da gəlməyən bir şey idi. Dedilər, istəyirsən sabaha qədər yaşayasan? Dedim hə. Bir şərtləri var idi. Məni sabah öldürəcəkləri halda tikə-tikə doğrayacaqlarını bildirdilər. Və mən də razılaşdım".

Valehin heç bir məqsədi olmadan dediyi o yalan onu həyatda saxlayır. Səhəri gün onu kameradan çıxarıb öldürməyə apardıqlarını desələr də, əslində, erməni əsirlərlə dəyişirlər.

Beləliklə, Valeh Hüseynov 27 günlük işgəncə və ağır əzab-əziyyətdən sonra üç erməni qarşılığında girovluqdan azad olur. Bundan sonra uzun müddət xəstəxanada qalıb, heç kimlə görüşmür. "Mənim üçün ən pisi sevdiyim insanın qucağımda can verməsi, heç nə edə bilməməyim idi", - deyir Valeh.

31 il sonra hələ də Xocalı yaralarını daşıyır həm bədənində, həm də ruhunda. Yeganə təsəllisi Səadəti orada qoyub getməməyidir. Həyat yoldaşının cəsədini isə atasıgil taparaq dəfn ediblər.

## "Xocalıya dönüb, ocağımızı yenidən yandıracağıq"

2020-ci ilin sentyabrında başlanan Vətən müharibəsi Azərbaycanın qələbəsi ilə yekunlaşdı. Torpaqlarımız işğaldan azad olundu, şəhidlərimizin, Xocalının qisası alındı. Bu gün Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma və bərpa işləri gedir. Məcburi köçkünlərimiz mərhələli şəkildə didərgin salındıqları evlərinə, yuvalarına qayıdırlar.

Valeh Hüseynov deyir ki, bu, bizim üçün olduqca böyük qələbədir: "İnanıram ki, qısa zamanda Xocalıya da gedəcəyik. Allah o günü də bizə qismət eləsin".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Qubada Xocalı faciəsi anılıb

**Qubada Bəşir Səfəroğlu adına Mədəniyyət Mərkəzində Xocalı faciəsinin 31-ci ildönümünə həsr edilən tədbir keçirilib. Şəhid ailələri, ictimaiyyət nümayəndələri, ziyalıların iştirak etdiyi tədbirdə Xocalı şəhidlərinin xatirəsi birdəqiqəlik sükutla anılıb.**





Sonra 31 il əvvəl Xocalıda baş verən dəhşətli faciədən söz açılıb. Bildirilib ki, fevralın 25-dən 26-na keçən gecə erməni qəsbkarlar Xocalıya hücum edərək sakinləri vəhşicəsinə qətlə yetiriblər. Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla, 613 Xocalı sakini qətlə yetirilib. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib.

Qeyd olunub ki, ölkənin müxtəlif ərazilərində məkunlaşan xocalılılardan 3 ailə də Qubaya pənah gətirib. Həmin ailələrdən ikisi Özbəkistanın Fərqanə vilayətindən Xocalıya köçürülmüş Axıska türkləridir. 25 nəfərdən ibarət 3 ailə Quba şəhərində və Barlı qəsəbəsində məskunlaşıb.

Sonra iştirakçılar Xocalı soyqırımına həsr edilmiş sərgiyə və mədəniyyət işçilərinin səhnələşdirdikləri tamaşaya baxıblar.

*Akif ƏLİYEV, "Azərbaycan"*

# Şəhid oğlu: "Misli görünməmiş faciə gecəsində, demək olar, bütün qohumlarım qətlə yetirilib"

**"1992-ci il fevralın 25-dən 26-na keçən gecə - Xocalı faciəsində nənəm, iki bibim və digər qohumlarım qətlə yetirilib. Atam polis serjantı Behbudov Vaqif Yusif oğlu Xocalının müdafiəsi zamanı şəhid olub. Mən faciədən 4 ay sonra dünyaya gəlmişəm. Atam şəhid olduğu üçün adını mənə qoyublar - şəhid atamın adını qürurla daşıyıram".**



Bu sözləri AZƏRTAC-a şəhid oğlu Vaqif Behbudov söyləyib.

Nənəsinin və bibisinin faciə gecəsi şəhəri tərk edərkən vurulduqlarını deyən Vaqif Behbudov hiss etdiklərini dilə gətirə bilmədiyini diqqətə çatdırıb: "Onların məzarı Ağdamda "Uzundərə" Şəhidlər xiyabanındadır. Ermənilər həmin dəhşətli gecədə mənim, demək olar ki, bütün qohumlarımı qətlə yetiriblər. Bibim rabitəçi idi. O, telefonla Ağdama xəbər vermişdi ki, Xocalıya hücum var, köməyə gəlin. Misli görünməmiş o məşum faciə gecəsində tamamilə məhv edilən 8 ailədən biri nənəmin qohumlarının ailəsi olub. Ermənilər ağlasığmaz qəddarlıqla uşaq, qadın, qoca demədən hamıya əzab-əziyyət veriblər".

Şəhid oğlu bildirib ki, Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, 44 günlük Vətən müharibəsində Xocalı faciəsinin qisası alındı. Biz artıq qalib ölkənin qalib xalqıyıq. Torpaqlarımızı işğaldan azad edən və bizə bu qürur hissini yaşadan qəhrəman igidlərimiz, qazilərimiz və şəhidlərimizdir.




# XX əsrin faciəsi - Xocalı soyqırımı 31



# Xocalı faciəsinin 25-ləri

## Bir gecədə anası və atası ilə yanaşı, 28 qohumunun ölümünə şahidlik edən Xocalı sakini





**"Həmin gecə ermənilər hər tərəfdən zirehli texnikalarla şəhərə hücuma keçdilər. Ermənilər evləri yandırırdılar. Qocalar, qadınlar, uşaqlar zirzəmilərə toplaşıb ümidlə kömək gözləyirdilər. Hər keçən dəqiqə şəhəri dəhşət bürüyürdü. Zirzəmilərə yaxınlaşıb oradakı ailələrə şəhəri tərk etmək lazım olduğunu bildirirdim".**

Əzimov Şahin Həsənbala oğlu Xocalı faciəsinin şahidi, hər iki valideyni şəhid olmuş 25 uşaq, yeniyetmədən biridir. Onun anası və atası fevralın 26-da gözlərinin qarşısında güllələniblər. Həmin gün Şahinin daha 26 doğması ermənilərin törətdiyi dəhşətli faciənin qurbanına çevriliblər.

Şahin Xocalının Ballıca kəndində anadan olub. Əzimovlar ailəsinin Ballıcadakı evi ermənilər tərəfindən yandırıldığı üçün onlar 1988-ci ildən Xocalı rayonundakı fin evlərdə yaşamağa məcbur qalıblar. 1992-ci ildə Şahin sexdə çörəkbişirən işləyirdi. Həmin vaxt 18 yaşı olmasına baxmayaraq, ailəsinin dolanışıq yükünü çiyinlərinə götürmüşdü.

### "İnsanları gözlərimin önündə güllələyirdilər"

"İllər keçdikcə daha dərin duyğulara qapılır, həmin gün yadıma düşdükcə daha çox həyəcan keçirirəm. Baş verənləri heç cür unuda bilmirəm. Fevralın 26-da gecə saat 3-4 radələrində Qarqarçayı keçib üzü Ağdam istiqamətinə gedəndə daha nələr görmədik ki?! Həm də necə - qarlı yollarda ayaqyalın, başıaçıq... Vəziyyət necə olacaq, bilmirdik, hər şey qeyri-müəyyən qalmışdı. Elə yoldaca ermənilər qarşımızı kəsib körpələrə, ahıllara, hamilə qadınlara baxmadan insanları güllələməyə başladılar. Yaxınlarımı da orada itirdim. Mən isə tamamilə təsadüf nəticəsində erməni gülləsindən yayınıb sağ qala bildim", - deyə faciə şahidi həmin günü xatırlayır.

Deyir, həmin an özünü itirsə də, başa düşürdü ki, onlara kömək lazımdır: "Kömək çağırmaq üçün qaçıb kanal tərəfə getdim, orada gördüklərim daha dəhşətli idi. Təsəvvür edin, kanal boyu insan meyitləri, yaralılar... Heç kimə, südəmər uşaqlara belə rəhm etməmişdilər. Elə ona görə də Ağdamda məni görənlər erməni çəmbərindən sağ-salamat çıxdığıma inana bilmirdilər".

Şahin bir məqamı da qeyd edir. Deyir, sonralar Ağdam onun üçün daha da doğmalaşıb. Ağdam qəbiristanlığında dostlarını-tanışlarını, ən əsası isə, valideynlərini torpağa tapşırıb. Ona görə də 44 günlük Vətən müharibəsində torpaqlarımız işğaldan azad olunduqdan sonra ilk fürsətdə Ağdamdakı Şəhidlər xiyabanına baş çəkib.

"Düzdür, qəbirlər dağıdılsa da, oraya getmək, atamın, anamın ruhu dolaşan yerlərdə olmaq mənim tək təsəllim idi, hansı ki illərlə deyilən sözlər, verilən vədlər bizə bəzən ümid versə də, təsəlli ola bilmirdi. Ona görə də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad edən Azərbaycan Ordusuna bir ömür təşəkkür etsək də, azdır".





### Bir ailədən 6 şəhid

Vidadi Hüseynovun ailəsi Xocalıda ən çox itki verən ailələrdəndir. Qətliam gecəsindən sonra Vidadi atası Hüseyn bəy, anası Əzizə xanım, 3 bacısı və qardaşından xəbər ala bilməyib. Həmin gün 26 yaşlı gənc ailəsinin 6 üzvünü itirib, bir özü qalıb, bir də bacısı. O dəhşətli gecədə qocaların, qadınların güllələndiyinə, başı kəsilən, boğazının dərisi soyulan, gözləri çıxarılan uşaqların ah-naləsinə şahidlik edib. Faciə şahidinin sözlərinə görə, ermənilər qorxudan, soyuqdan ağlayan uşaqların səsinə gəlib onlara işgəncə verməyə başlayırdılar.

"Uzun müddət idi ki, Xocalıda gün sakit keçmirdi, hər gün ermənilər atəş açırdılar. Ona görə də hər axşam növbəli şəkildə postda olurduq. Fevralın 25-dən 26-na keçən gecə postda mənim növbəm idi. Çox dəhşətli idi. Sakinlər meşəyə tərəf qaçırdılar, qarlı havada, minbir əzab-əziyyətlə... Üç günə Xocalıdan Ağdama gəlib çıxa bilmişdim. Əl-ayağım soyuqdan donduğu üçün xəstəxanada yatası oldum. Ailəmdən xəbərim yox idi, hərə bir yana dağılmışdı. Sonra ailəmi axtarsam da, tapa bilmədim. Deyilənlərə görə, həmin gecə evimiz bombalanıb. Bəlkə də ailəm evin içində yanıb külə dönüb. Amma elə dəhşətli hisslərdir ki, hər an gözüm yoldadır - bəlkə qayıdan, "Vidadi" deyib səsləyən olar", - deyə faciə şahidi bildirir.

Hadisədən 31 il keçməsinə baxmayaraq, Vidadi həmin gecəni dünən olmuş kimi xatırlayır. İndi isə bir ümidi var. Deyir, Ali Baş Komandana güvənir, onun sayəsində tezliklə Xocalıya qayıdıb öz doğma yurdunda yaşaya biləcəyinə inanır.

Xocalı faciəsi kütləviliyinə, amansızlığına, müki şəxslərin qəddarlıqla qətlə yetirilməsinə görə təkcə xalqımıza qarşı deyil, bəşəriyyətə qarşı törədilmiş ağır cinayətdir. Xalqımız həmin gecənin dəhşətini əsla unutmur və bütün dünyanı bu bəşəri cinayətə, Xocalı soyqırımına biganə qalmamağa çağırır. Bu soyqırımı müasir tariximizin ən kədərli izlər buraxan, xalqımızı daim milli özünüdərk ruhunda kökləyən dəhşətli faciəsidir.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# Bu gün biz 31 il əvvəlki biz deyilik

## Böyük zəfər ölkəmizi də, insanlarımızı da dəyişmişdir

**Xocalı faciəsindən 31 il keçir. Zaman çox şeyi insan yaddaşından silir. Siz istəsəniz də, istəməsəniz də baş verənləri unudursunuz. Vaxt ötdükcə hadisələr "preslənir" və ən vacib məqamların qısa məzmununu xatırlayırsınız. Amma bu, Xocalı faciəsinə aid deyil. Ümumiyyətlə, yaşadığın istənilən ağır faciəni unutmaq olmur. Yaralar qaysaqlanır, amma çapıqlar qalır, daim gözünün qarşısında olur.**

Vətənlə, torpaqla bağlı istənilən itki, dərd harada olursa-olsun səni haraylayır, çağırır. Onun arxasınca getməkdən savayı yolun qalmır. Ağdama digər rayonlardan və hətta Naxçıvandan gələnlər olurdu. Biz də hamı kimi Xocalı faciəsindən bir qədər sonra Ağdama yola düşdük. Səhərin sinəsinə müdhiş bir ağırlıq çökmüşdü. Deyəsən, yaz qədəmlərini açmışdı, amma ağacların yarpaqladığı yadımda deyil. Ağır dərdin altında sıxılanda hər şeyi ağqara rəngdə görürsən. Binalar, yollar, təbiət də ağ-qara rəngə bələnir və yaddaşına da elə çökür. Xatirələrin də bu rəngdə olur.

Şəhərin mərkəzində Allahverdinin, özünümüdafiə dəstələrindən birinin komandirinin ardına düşüb gəzənlərin sayı-hesabı yox idi. Oğlunu, qızını, həyat yoldaşını və valideynlərini itirən insanlar ondan kömək umurdular. Sadəcə ölülərini alıb torpağa tapşırmaq istəyirdilər. İki min ildən yuxarı bəşər tarixində bütün müharibələrdən sonra döyüşən tərəflər ölənləri daşımaq üçün qarşı tərəfə imkan verib. İstəsəniz bu barədə Homerin dastanlarından oxuya bilərsiniz. Amma erməni faşistləri - Xocalı qatilləri qətlə yetirdikləri, öldürdükləri insanların meyitlərindən də pul qazanmaq istəyirdilər. Meyitləri qənimət kimi saxlayırdılar.

Yaxşı yadımdadır. Allahverdini dövrəyə alan adamlar deyirdilər ki, nə istəyirlər verək, ölülərimizi götürüb torpağa tapşıraq. Allahverdi uca səslə:

- Ay camaat, bir gözləyin, dərd tək sizin deyil, hamının dərdidir. Benzin vermək istəyirsiniz, sizin verdiyiniz benzini alıb, cəsədlərinizi verəcəklər, elə o benzinlə də üstünüzə gələcəklər. Olmaz elə şey. Gözləyin, başımıza bir çarə qılaq.

Ağdamda erməni əsirləri var idi. Allahverdigili danışıqlarda onları dəyişdirməyə razı saldılar, amma deyəsən bu işlərə jurnalist qoşmağın heç marağında deyildilər. Biz artıq iki gün idi ki, onunla görüşürdük, aramızda ünsiyyət yaranmışdı. Bəlkə buna görə də bizə əsirlərin dəyişdirilməsində iştirak etməyə icazə verdi.

Ağdamda Xalq Cəbhəsinin rayon təşkilatının həyətinə erməni əsirlərini çıxartdılar. Hamısı sakit idi, baxan kimi bilinirdi ki, təpik altına salınmayıblar, ac deyillər, yeməkləri vaxtında verilib. Acından yıxılan, ayaq üstə dura bilməyən yox idi.

Allahverdi ermənilərlə bir neçə saat danışıqlar apardı, nələrisə dəqiqləşdirirdilər. Soruşdum ki, ermənilərin içinə gedirik, bizi qoruyan olacaqmı, qarantımız kimdir? Cavab verdi ki, tapşırmışam, əgər ermənilər bir zibil qaynatsalar, bizi özümüzünkülər elə dənləyəcək, yeri-göyü elə dağıdacaq ki, iynə ucu qədər tikəmiz də ermənilərin əlinə keçməyəcək. Anladım ki, bu, müharibənin od-alovunda bişən adamın ya zarafatıdır, ya da bizi sınaması. Baş verən faciənin ağırlığı elə müdhiş idi ki, onun fonunda sənin sağ qalmağın, ya da ölməyin elə də böyük fərq etmirdi.

Biz azdan maşınlara oturub yola çıxdıq. Bir neçə kilometr gedəndən sonra dayandıq. Artıq keçmiş Əsgəranın ərazisində idik.

Ermənilər də azərbaycanlı əsirləri maşında gətirmişdilər. Üzbəüz dayandıq, Allahverdi onlarla salamlaşdı, sonra əmr verdi ki, əsirləri düşürsünlər. Erməni əsirləri bizim maşından yerə endilər. Bizim əsirlər ermənilərin maşınından yerə düşəndə isə dəhşətə gəldik. O qədər adamın içində yalnız bircə nəfər bir az normal görünürdü. Allahverdi dedi ki, bu nə məsələdirsə, şəxsən özü araşdıracaq. Amma digər əsirlərin ayaq üstə durmağa belə halı yox idi. Hamısı ucdantutma əzab çəkən, işgəncə verilən adamlar idi. Eləsi də var idi ki, heç yeriməyə taqəti qalmamışdı. Bizim uşaqlar onlardan bir neçəsini kürəyinə alıb bəri gətirdilər. Çöp kimi arıqlamışdılar, danışmağa taqətləri yox idi, ölüm düşərgəsinin məhbuslarına bənzəyirdilər.

Ermənilər isə harın-harın qımışır, özlərini qəhrəman və yenilməz kimi aparırdılar.

30 il əvvəlin xatirələri bu gün də bizi sarsıdır. Tanrının qismətimizə yazdığı uzun illərin zirvəsindən Vətənin keçmişinə boylananda anlayırsan ki, sən də bütün baş verən faciəvi hadisələrin canlı şahidlərindən birisən. Yaşadıqların və gördüklərin sənə də imkan verir ki, özünü Azərbaycan adlı dövlətin kiçik bir zərrəsi hiss edəsən. 30 il ərzində şəhərləri və kəndləri erməni işğalına və əhalisi soyqırımına məruz qalan əzabkeş bir xalqın möhtəşəm qələbəsinin və dirçəlişinin sayəsində xalqımızın xarabazarlıqlardan necə ucalmasının şahidisən.

İlham Əliyev bir inadkar sərkərdə qətiyyəti ilə 30 illik işğalı 44 günə möhtəşəm qələbə ilə yekunlaşdırdı. Bizə imkan verdi ki, müqəddəs qələbənin tamını dadaq. Onun beynəlxalq aləmdəki misilsiz diplomatik "döyüşləri" erməni işğalçılarının bütün tərəfdarlarını məğlub etdi. Ali Baş Komandanımızın döyüş bölgəsində qətiyyətli sərkərdə kimi apardığı ər döyüşləri bütün dünyanı heyran qoydu. Planetin ən güclü orduları belə etiraf etdilər ki, İlham Əliyev apardığı müharibə yenilikləri və unukallığı ilə bütün dünyaya dərs verdi. Və hamı etiraf etdi ki, Azərbaycan sərkərdəsinin, Ali Baş Komandanın sərgilədiyi savaş sistemləri bu günədək dünyada tətbiq olunmamış yeni savaş idi.

Xocalı faciəsi baş verəndən sonra uzun illər başımızı qaldırıb bir-birimizin gözünün içinə baxanda əzab çəkirdik. Elə gəzirdik, elə dolanırdıq ki, sanki bədənimizin və ruhumuzun tən yarısı torpağın altındadır. Belə yaşamaq ağır idi - mümkün deyildi. Bu gün sözün bütün mənalarında qalibik. Ölümün üstünə sığıyan, Azərbaycan bayrağının ağuşunda şəhidlik zirvəsinə ucalan igidlərimizin ruhu önündə baş əyirik, onların məzarları önündə diz çökürük, bizi qalib etdikləri üçün. Dünyada elə bir döyüş, müharibə olmayıb ki, əsgərlər döyüşə Azərbaycan Ordusunun şahinləri kimi rəqslə getsinlər. Bizim igidlərimiz bunu da bacardılar! Qollarını açıb düşmənin üstünə rəqslə şığıdılar, ölümü təbəssümlə qəbul etdilər. İndi biz 30 il əvvəlki biz deyilik!

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*



# Övlad məzarına həsrət ana

**O, Xocalıda həyatının unudulmaz illərini - gənclik çağını yaşayırdı. Lakin qəddar düşmən taleyini alt-üst etdi, əvvəlcə qardaşını, sonra isə övladını əlindən aldı 24 yaşlı Gülər Abdullayevanın.**





Hələ Xocalı soyqırımı yaşanana qədər o, erməni faşizminin qanlı əməllərinə tuş gəlmiş, kiçik qardaşı, 18 yaşlı Əhməd Xocalının ilk şəhidi olmuşdu. O günləri gözyaşları ilə belə xatırlayır Gülər: "1990-cı il dekabrın 15-i idi. Cəmilli kəndində anamgillə birlikdə yaşayan qardaşım iki milislə qonşu kəndə taxıl gətirməyə getmişdi. Qıtlıq idi, yeməyə çörək belə tapmırdıq. Ermənilər qonşu kəndlərimizə gediş-gəlişə imkan vermirdilər, bizi mühasirədə saxlayırdılar. Elə Əhmədi də həmin iki milislə birgə yolda güllələyib öldürmüşdülər".

Ailəsi ilə birgə Xocalının Kosalı kəndində yaşayan Gülər 1991-ci il avqustun 23-də qardaşının məzarını ziyarət etmək üçün ata ocağına - Cəmilliyə gedəsi olur. Lakin xain düşmən həmin gün yaslarını bir daha qana boyayır, kəndə hücum edir. Xəbəri eşidən Gülərgil ehsan qazanlarını ocaqda qoyub yük maşınında kəndi tərk etməyə və canlarını qurtarmağa çalışırlar: "Bizim maşının yük yerində 21 nəfər var idi. İki yaşlı qızım Maya mənim, beş yaşlı böyük qızım Aytəkin qardaşımın qucağında idi. Yeddi yaşlı oğlum Şücayət isə həmin vaxt Kosalıda ata nənəsinin yanında idi. Biz yolda ermənilərin pusqusuna düşdük. Qızım Maya orada güllə yarasından şəhid oldu".

### "Körpəmi özüm dəfn edə bilmədim"

"Qızımın dünyasını dəyişdiyi o anları, inanın, hər gün yaşayıram. Sinəsində gülləden salamat yer qalmamışdı. Özümü uşaqlarıma sipər eləsəm də, xeyri olmadı. Güllələr hər tərəfdən yağırdı. Özüm də, digər qızım da ağır yaralandıq. Həm çox qan itirdiyimə, həm də yaşadığım dəhşətə görə huşumu itirdim", - deyir dərdli ana.

Həmin vaxt böyük çətinliklərlə yaralıları Ağdam xəstəxanasına gətirirlər. Gülər xanımın vəziyyətinin çox ağır olduğunu görüb onu təyyarə ilə Bakıya çatdırırlar, qızının müalicəsini isə orada davam etdirirlər: "Gözlərimi Bakıda, xəstəxanada açdım. Əvvəlcə harada olduğumu dərk etmədim. Bir az keçəndən sonra hər şeyi xatırladım. Uşaqlarım harada idilər, nə edirdilər, bilmirdim. Yaralı qızımın vəziyyəti necə idi? Nənəsigildə olan oğlumun başına nə gəlmişdi, onlara da hücum etmişdilərmi? Körpəmin cansız bədəni harada idi? Boğulurdum. Ağrılardan huşumu itirir, özümə gələndə isə yenə də övladlarım düşürdü yadıma".



Gülər Abdullayeva və onunla birlikdə xəstəxanaya gələn həyat yoldaşı xeyli müddət övladlarından, digər əzizlərindən ayrı qalırlar, onlardan heç bir xəbər ala bilmirlər: "Vəziyyət çox ağır idi. Rayonla əlaqə saxlaya bilmirdik. Bir gün xəstəxanaya televiziyadan jurnalistlər gəlmişdilər. Vəziyyəti onlara danışdım, kömək elədilər. Övladlarımı tapdılar. Demə, uşaqların hər ikisi nənələrinin yanında imiş. Onlar əvvəlcə Şuşaya qaçıblar, lakin burada da rahatlıq tapa bilməyiblər. Şuşa işğal olunandan sonra Bərdədə sığınacaq tapıblar. Öz ölkəmizdə, öz torpaqlarımızda rahatlıq vermədilər bizə ermənilər. Körpəmi belə özüm dəfn edə bilmədim. Sağalıb evə qayıtmaq istəyirdim ki, Xocalının işğal xəbəri gəldi".

### 6 il xəstəxana çarpayısının "əsirliyi"ndə

Gülər Abdullayevanın güllə yaraları sonradan onu düz 6 il xəstəxana çarpayısına "əsir" edir. Ayağa qalxdıqdan sonra da dəfələrlə əməliyyat olunur. Başından yaralanan qızı Aytəkin isə bu gün də erməni güllələrinin fəsadlarını yaşayır. Birinci qrup Qarabağ müharibəsi əlili olan gənc qadının bədəninin bir hissəsi iflicdir. İndiyədək 7 dəfə beyin əməliyyatı keçirib. Sonuncu əməliyyatı bir neçə gün öncə olub. Kürəyindəki yeddi qəlpə isə hələ də qalır.

Şəhidlər vermiş bu ailənin xəstəxanadan çıxdıqdan sonra da əzab-əziyyətli günləri davam edib. Dərdli qadın iki övladına qovuşsa da, nə onları geyindirməyə paltar tapıb, nə də qarınlarını doyurmağa yemək. Bir müddət Ağdamda və Bərdədə yaşadıqdan sonra Gəncəyə köçüblər. 10 ildən sonra Bakıda məskunlaşıblar.

Gülər xanım deyir ki, indi maddi vəziyyətləri yaxşıdır: "Dövlətimiz bizə çox dəstək olur. 2014-cü ildə 3 otaqlı evlə təmin olunduq. Övladlarımı, nəvələrimi başıma yığıb orada yaşayıram. Qızım Aytəkinə də çox kömək edirlər. Heydər Əliyev Fondu tərəfindən ona da dörd otaqlı ev verilib".

Gülər Abdullayevanın ən böyük arzusu Xocalını görməkdir. Çünki həmin gün təkcə şəhid yurduna yox, həm də şəhid övladının məzarına qovuşacaq. İndi övladının məzarını görüb, onun torpağını sığallamaqdır ən böyük arzusu...

Torpaqlarımızı geri qaytararaq ürəyimizdən tikan çıxartdıq, yaralarımız qaysaq bağladı. O gün də gələcək, Xocalının şəhid anaları Xocalını da bağırlarına basacaqlar. Az qalıb, lap az qalıb...

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*




# XX əsrin faciəsi - Xocalı soyqırımı 31










## Xatirələrin ən ağrılı ünvanı

**"Dağlarla əhatələnmiş, çayları bolsulu, buz bulaqlı, yaşıl çəmənli, bağbağatlı... Belə bir yerdi Xocalı... Təbiətin ən gözəl fəslidir yaz... Xocalı isə dörd fəsildə də gözəldi. Qar yağanda bir cür, yağış yağanda başqa cür gözəllik verirdi ona. Bahar gəlirdi. Bambaşqa gözəllik bürüyürdü hüsnünü. Cürbəcür dərmanlarda dərdlərimizə əlac axtarırıq indi. Xocalıda yaşayanda bizə dərman da lazım deyildi. Suyu, havası, dağları, o torpaqdan boy verən bitki, çiçək min bir dərdin dərmanı idi".**

Xatirələrinin ən şirinlərinin, ən gözəllərinin də, ən ağrılısının, əzablısının da ünvanı olmuş şəhərdən - Xocalıdan danışır Xocalı Şəhid Ailələri Cəmiyyətinin sədri Mehriban Əhməd qızı Əliyeva. Göz açıb nağıllardan, əfsanələrdən, xəyallardan daha gözəl olan o məkanı görmüşdü: Bizim üçün sanki həyatın qanunauyğunluğu idi bu... Xocalıda dünyaya göz açmışdıq. Orda boya-başa çatmışdıq. Ailə qurub evəşik, oğul-qız sahibi olmuşduq. Son mənzilimiz də ulularımızın uyuduğu o torpaqlarda, bir məzarlıq yer olmalıydı... Ağlımıza gəlməyən başımıza gəldi... Ancaq Xocalı faciəsi birdən-birə baş vermədi".

Xəyalı gözüyaşlı xatirələrindən keçib, uşaqlıq illərinə çatır. Orada ki, yaşlı atası, bacı-qardaşları sağdırlar. Anasını isə xatırlamır. O, dünyadan köçəndə Mehriban xanım yaşyarımlıq olub. Atası Əhməd kişi yenidən ailə qurub. İkinci evlilikdən də altı qızı, bir oğlu dünyaya gəlib. On üç uşaqlı böyük bir ailə olublar. Əhməd kişinin ocağında mehribanlıq hökm sürüb. Bir də Mehriban xanım xalasından analıq mehri, məhəbbəti görüb. "Mənim atam yüz ildən çox yaşadı. Atam kimi yaşlı insanlar XX əsrdə Xocalının erməni quldurları tərəfindən üç dəfə yandırdıqlarından, yerli əhaliyə divan tutduqlarından danışırdılar. Kəndimizdən bir az aralıda ot basmış yerlərdə köhnə daşlar vardı. Ev yerləri idi. Atam deyirdi ki, əvvəllər Xocalı burada yerləşirdi. Ermənilər kəndə hücum ediblər. Evlərə od vurublar. Yerli sakinlərə işgəncələr veriblər. O zaman da neçə-neçə xocalılını vəhşicəsinə qətlə yetiriblər. Atam deyirdi ki, Azərbaycanın cavan-cavan oğlanlarını ermənilər tuturdular, öküz arabasının çarxlarına zəncirləyirdilər. Samovarı da qaynaya-qaynaya onların belinə bağlayırdılar. Sonra qamçılayırdılar ki, tərpəndikcə, samovarın qaynar suyu üstlərinə tökülsün. Onlar çığıra-çığıra yanırdılar. Ermənilər gülürdülər. XX əsrin sonlarında Xocalıya dördüncü dəfə od vurdular. Amma onda atam artıq vəfat etmişdi, o dəhşətləri görmədi".

Mehriban Əliyeva deyir ki, Xocalıda qədimliyinin nişanəsi olan kurqanlar, abidələr vardı. Onların hər biri o torpaqların əzəli sakinlərinin kimliyini təsdiq edirdi. Ancaq ermənilər Qarabağa gəlmə olduqlarını hələ özləri də etiraf etdikləri vaxtlarda belə yerli əhalidən daha imtiyazlı, arxalı idilər. SSRİ-nin mərkəzindən onlara himayədarlıq edilirdi. Görünür, məqsəd Qarabağı erməniləşdirmək idi. Ancaq Qarabağa əsli-kökü ilə, fikri-düşüncəsi ilə bağlı olan əhali vardı. Bir də Azərbaycan xalqının vətənpərvər, təəssübkeş, savadlı övladları məkrli erməni planlarını reallaşmağa qoymurdu. Onlardan biri də yalnız silahı ilə deyil, həm də iti qələmi, kəsərli sözləri ilə erməni saxtakarlığını ifşa edən Şöhrət Usub oğlu Həsənov idi. O, 1944-cü ildə Xocalıda dünyaya gəlib. Atası Usubla anası Mədinənin on dörd uşaqdan sağ qalan yeganə övladı, madarı olub. Elə adını da üzünü görmədiyi atası qoyub. Usub Həsənov Böyük Vətən müharibəsinə gedəndə altı aylıq hamilə olan həyat yoldaşına deyib: "Ürəyimə damıb, bu uşaq sağ qalacaq, mənim qızım da, oğlum da olsa, adını Şöhrət qoy. Qoy o mənim şöhrətim olsun. Vətəninə xeyirli övlad olsun. Şöhrət qazansın".

Usub Həsənov müharibədən geri dönməyib. Şöhrət Həsənovu anası böyük çətinliklərlə böyüdüb. O, orta məktəbi əla qiymətlərlə bitirib. Bakıya gəlib ali təhsil aldıqdan sonra geri dönüb. Yalnız ona görə yox ki, anasını tək qoymayıb, həm də Şöhrət Həsənov da həyatını Xocalısız təsəvvür etməyən insanlardan olub.

Mehriban xanım danışır: "Ailə qurduq, beş qızımız, bir oğlumuz oldu. Ev tikdik. Xoş günlərimiz vardı. Ancaq elə o vaxtlar da Şöhrətin rahat ömür sürdüyünü deyə bilmərəm. O, çox bilikli, savadlı adam idi. Bir neçə dil bilirdi. Şöhrət bir neçə vəzifə icra edirdi, icra hakiminin birinci müavini idi. Şöhrət yalnız silahla döyüşməyib. Hələ bu hadisələrdən qabaq Şöhrət tarixi faktlarla, kəsərli sözlərlə ermənilərin cavabını verir, onları susdururdu. Yaşlı insanlardan imza toplayıb o vaxt SSRİ Ali Sovetinə yazmışdı ki, bizim ulu babalarımızın sümüklərini ermənilər məzarlarından çıxarıb, Xocalının köhnə qəbiristanlığının yerində Yeni Noragil kəndi salıblar. Sonra elə bir məqalə də yazmışdı. Hətta ermənilər Şöhrətin başına pul qoymuşdular ki, kim öldürsə, ona verəcəyik".

1988-ci ildən Qarabağın bir çox yerləri kimi, Xocalının da ağır günləri başladı. 1992-ci ildə isə vəziyyət olduqca ağır idi. Xocalı mühasirədə idi. Xocalının qeyrətli oğulları özünümüdafiə batalyonu yaratmışdılar. Mehriban xanım xatırlayır: "Kəndin kişiləri evdə gecələmirdilər. Səhərə qədər Xocalıya keşik çəkirdilər. Silah yox idi. Kiminin əlində ov tüfəngi, kiminin taxta, dəmir parçası postlarda dayanırdı. Şöhrət də postda olurdu. Evə gələndə sırsıra bağlamış kirpiklərini çətinliklə aça bilirdi. O, səhər saat 6-da qayıdırdı. Sonra da idarəyə gedirdi, vəzifəsini yerinə yetirirdi. Bir yandan da guya Qarabağa sakitlik yaratmaq üçün gələn, Xankəndidə qərargah yaratmış Viktor Polyaniçko ilə danışıqlara gedirdi".

Xocalı tez-tez atəşə məruz qalırdı. Qadınlar, uşaqlar, ahıllar zirzəmilərə sığınırdılar. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə saat 11-i keçmişdi. Mehriban xanım xatırlayır: "Yatmışdıq. Yenə atəş açmağa başladılar. Səslər ara vermədi. Postda duranlar gəlib bizə dedilər ki, çıxmaq lazımdı. Şöhrət də gəlmişdi. Yerindən duran küçələrə qaçırdı. Əynimizə isti paltar geyinməyə belə vaxt yox idi. Ancaq biz o gecə də güman eləmirdik Xocalıdan gedərik. Hava çox soyuqdu, qar yağır, şaxta qılınc kimi kəsirdi. Xankəndidə o vaxt sovet ordusunun 366-cı motoatıcı diviziyası yerləşirdi. Həmin diviziyanın tankları yeridi üstümüzə, arxasınca piyada ermənilər oxuya-oxuya, oynaya-oynaya gəlirdilər. Ermənilər əllərindəki yandırıcı maddələri evlərə atırdılar. 9 ailədən bir canlı da sağ çıxmadı. Yanıb kül oldular. Naəlac qalmışdıq. Kətik dağın ətəyindən Qarqar çayı axırdı. Dərindi və iti axırdı".

İnsanlar Qarqar çayının buz kimi soyuq, dərin sularına vurdular özlərini. Güllə ara vermirdi. Mehriban Əliyeva danışır: "Boğazımıza qədər suya batmışdıq. Çaydan keçib Kətik meşəsinə girdik. O meşədə Qara qaya deyilən bir yer var. Həmin qayaya mən Qanlı qaya deyirəm. Çünki orda xocalılılara elə divan tutdular ki... Mənfur düşmən Qara qayada pusqu qurmuşdu. Xocalılıları BTR, zirehli tanklar, iriçaplı pulemyotlarla qarşıladılar. Yerdəki ağ qar xocalılıların al qanlarına boyandı. Meyitlərə də zorakılıq edirdilər. Qulaqlarını, burunlarını kəsdilər, gözlərini çıxardılar. Yaşlı bir nənənin döşlərini kəsdilər. Bir ərlə arvadı məftillə bir-birinə bağlayıb, məcbur ediblər ki, desinlər Qarabağ ermənilərindir. Onlar da deməyiblər. Benzin töküb ikisini bir yerdə diri-diri yandırıblar".

Fevralın 25-dən 26-na keçən gecə Kətik meşəsində xocalılıların naləsi ərşə qalxmışdı. Vətənpərvər oğullar nə öz canlarını, nə də ailələrini xilas edə bilirdilər. Bütün xocalılılar bir ailəyə çevrilmişdi o gecə. Övladları ilə Kətik meşəsində əzab-əziyyətə qatlaşan Mehriban xanım da həyat yoldaşından ayrı düşmüşdü. Şöhrət Həsənov, Ələsgər Novruzov, Əlif Hacıyev, Tofiq Hüseynov, Araz Səlimov və başqaları soydaşlarına kömək edirdilər ki, mühasirədən çıxa bilsinlər, ermənilərə əsir düşməsinlər. Ancaq igidlərin hamını xilas etməyə gücləri yetmirdi. Düşmən hiyləgər, qəddar və təəssüf ki, daha güclü idi.

Mehriban xanım deyir: "Mənim böyük bacım Nənəş Səlimovanın həyat yoldaşını həmin gecə ermənilər meşədə qətlə yetirdilər. Nənəşi, üç oğlunu və iki qızını isə əsir götürdülər. Oğlanları axıra qədər vuruşdular. Ortancıl oğlu Arazı iki ayağından yaraladıqdan sonra əsir götürə bilmişdilər. Onları Əsgəranda donuz fermasında saxlayıblar. Tarix təkrar olunurdu. "Dədə Qorqud" dastanında olduğu kimi, Araz da anasına, bacılarına deyib ki, bizə işgəncə verərlər, öldürərlər, birdən qışqırarsınız, oğul, qardaş deyərsiniz... Deməyin. Sizə toxunarlar. Bacım Nənəş danışırdı ki, bir az keçəndən sonra balaca pəncərə vardı, ordan baxdım... Analar oğlanlarını, bacılar qardaşlarını ermənilərin doğradıqlarını gözləri ilə görüblər. Araz Səlimovun başını öz pulemyotu ilə əzdikdən sonra doğrayıbalr. Meyitlərini atıblar yolun ortasına. Əsirlikdən dönəndən sonra Nənəşin ermənilərin işgəncələrlə şəhid etdikləri oğlanlarının məzarları belə yox idi ki, heç olmasa, gedib ağlasın. O, heç bir il də dözmədi. Analarından sonra iki qızı biri infarktdan, o biri şəkər xəstəliyindən vəfat etdilər. Əslində, onlar elə o günlərdə - ermənilər tərəfindən əsir götürüləndə, doğmaları gözlərinin qabağında doğrananda, işgəncələrə məruz qalanda ölmüşdülər. Mənim bacım kimi, bacım qızları kimi o qədər Xocalı faciəsinin qurbanları var ki..."

Səlimov Araz Bahadır oğluna igidliyinə görə ölümündən sonra Milli Qəhrəman adı verilib. Mehriban xanım bildirir: "Bacım Məlahətin həyat yoldaşını gözlərinin qabağında vurublar. Altı yaşlı qızı Nəzakət deyib ki, atanı vurdular. Atasına sarı gedəndə ermənilər uşağı gülləyə tutublar. Görün nə qədər qansızdırlar".

Mehriban Əliyevanın digər bacısı Maryanın iki qızını Kətik meşəsində əsir götürüblər. Onları ermənilər əsirlikdə bir-birindən ayırıblar. Sevinci sonralar erməni əsirləri ilə dəyişdirə bilsələr də, on dörd yaşlı Aslanova Elnarə Tofiq qızından xəbər yoxdur. "Hələ də gözlərimiz yollardadır", - deyir Mehriban xanım.

Həyat yoldaşı Şöhrət Həsənovun da xalası oğlanları, əmisi oğlanları şəhid olub. Özü də son anlarına qədər xocalılıları xilas etməyə çalışıb. Əlindəki balaca avtomatı bir an yerə qoymayıb. Yüzlərlə soydaşı kimi qəhrəman Şöhrət Həsənovu da ermənilər şəhid ediblər.

Nə qədər ağır olsa da, yada salır, danışır Mehriban xanım: "Nə müsibətlə gəlib Ağdama çıxdıq. Ağdamlılar harayımıza yetişdilər. Əlləri çatdığı qədər meşədən xocalılı şəhidlərin meyitlərini çıxarır, yük maşını ilə Ağdam məscidinə gətirirdilər ki, dəfn etsinlər. Xocalı soyqırımından sağ çıxanlar orda öz əzizlərinin meyitini axtarırdılar. Yenə fəryad, nalə asimana qalxırdı. Bir aya yaxın uşaqlarımla Şöhrəti harayladıq. Səsimiz dağlarda əks-səda verirdi. Elə bilirdim meşədən səsimizə səs verirlər. Çətinliklə də olsa, həyat yoldaşımın nəşini gətirdilər. Ermənilər demişdilər ki, Şöhrət Həsənovun danışan dilini, yazan əlini kəsəcəyik, görən gözünü çıxaracağıq. Necə demişdilərsə elə də eləmişdilər... Meyitlərə də işgəncə verməyi yalnız erməni kimi qəddarlar, qaniçənlər bacara bilərlər".

Mehriban xanım deyir ki, həyat yoldaşının cibindən Xocalı sakinlərinin siyahısı çıxıb: "Deməli, o bilirmiş ki, ermənilər Xocalını məhv etmək niyyətindədirlər. İstəyirlər sonra da desinlər ki, Xocalı adında, Xocalı böyüklükdə şəhər olmayıb. Həyat yoldaşım da yazdığı əhalinin siyahısını cibinə qoyub".

Şöhrət Həsənov 1992-ci il martın 21-də Bakıda Şəhidlər xiyabanında dəfn olunub. Ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif olunub.

Həmişə arzulayırmış ki, övladları yaxşı təhsil alıb, dövlətə, xalqa layiqli vətəndaş kimi yetişsinlər. Mehriban xanım deyir: "Qızlarımızın üçü həkim, biri tibb bacısı, biri müəllim oldu. Almaz leytenant-polkovnik, Gülnarə mayor, Ruhiyyə kapitandır. Aygün baş tibb bacısıdır. Bəyaz isə müəllimdir. Ailəmizin sonbeşiyi Babəkin ermənilər Xocalı faciəsini törədəndə yeddi yaşı vardı. Zirzəmilərə sığındığımız günlərin həyəcanı, Kətik meşəsində çəkdiyimiz acılar onun sağlamlığını əlindən aldı, əsəbləri pozuldu, birinci qrup əlil oldu".

Bu qədər ağrı-acıların bir təsəllisi var. İkinci Qarabağ müharibəsi qəhrəman Azərbaycan Ordusunun zəfəri ilə başa çatdı. Mehriban xanımın ən böyük arzusu Xocalıya qayıtmaqdır. Deyir ki, kaş ömür vəfa eləsin, gedib oranı görüm, addım-addım gəzim Xocalını: "Ömrümüzdən ötən hər gün xatirəyə çevrilir. Xocalı bizim xatirəyə dönməyən keçmişimizdir. Ağrısı, acısı heç zaman dinmir. Məlhəmi o yerlərdir. Yeddi qurban demişəm, hər gün bir qurban kəsərəm. Dizin-dizin sürünüb torpağından, daşından, ağacından, yarpağından öpərəm Xocalının..."

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Yaddaşımızın sağalmayan yarası

**Dünyanı sarsıdan Xocalı faciəsinin baş verdiyi günlərdən bizi 31 illik zaman məsafəsi ayırır.**

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşdirilmiş 366-cı motoatıcı alayının zirehli texnikasının və şəxsi heyətinin dəstəyi ilə Xocalı şəhəri üzərinə hücuma keçdilər. Erməni qəsbkarları bu qanlı hücumdan əvvəl, fevralın 25-də axşam şəhəri toplardan və "Qrad" qurğularından güclü atəşə tutmuşdular. Bir az keçmiş isə yağılar bir neçə istiqamətdən Xocalı üzərinə hücum çəkmişdilər.

Hücum güclü olduğuna görə ermənilər bir gecənin içində şəhəri yerləyeksan etmişdilər. Evlər yandırılmış, Xocalı camaatı amansızcasına qətlə yetirilmişdi. İyirmi beş min əhalisi olan Xocalı rayonu mühüm strateji əhəmiyyətə malik coğrafi məkanda yerləşirdi. Məhz buna görə də xeyli müddət idi ki, düşmən nəyin bahasına olursa olsun, şəhəri işğal etməyə çalışırdı.

Yaxın tariximizə nəzər yetirsək görərik ki, Xocalı erməni silahlı dəstələri tərəfindən 1991-ci ilin payızından yavaş-yavaş mühasirəyə alınmışdı. Bunun da nəticəsində şəhər tamamilə blokadaya düşmüşdü, onun işğalı üçün əlverişli şərait yaranmışdı. Düşmən yavaş-yavaş Xocalını ələ keçirməyə hazırlaşırdı. Bunun üçün ciddi işlər görürdü.

1992-ci ilin yanvarından Xocalıya verilən elektrik enerjisi kəsilmişdi. Əhalinin bir hissəsi bu cür ağır şəraitdə yaşaya bilmədiklərinə görə yavaş-yavaş şəhəri tərk etməyə başlamışdı. Bir müddətdən sonra erməni qaniçənləri şəhərə gedən avtomobil yollarını da bağlamışdılar. Yollar bağlanandan sonra ümid vertolyotlara qalmışdı. Xocalı şəhəri yalnız sakinlərinin qəhrəmanlığı və cəsurluğu sayəsində müdafiə olunurdu. Təbiidir ki, bu da uzun müddət davam edə bilməzdi.

Xocalıda 1 şəhər, 2 qəsəbə, 50 kənd, 1 məktəbəqədər, 12 ümumtəhsil və 1 texniki peşə məktəbi, 54 mədəniyyət və 1 səhiyyə ocağı var idi.

Xocalıya hücum üç istiqamətdən olduğuna görə əhali sağ qalmaq məqsədilə Əsgəran və Ağdam tərəfə qaçmışdı. Onlar hara üz tutsalar da xilas ola bilməmişdilər. Dağlarda və meşələrdə erməni silahlı dəstələri tərəfindən qarşıları kəsilərək güllələbaran edilmişdilər.

Xocalı soyqırımında iştirak edən hərbi hissələrin birinin əks-kəşfiyyat şöbəsinin rəisi, polkovnik Vladimir Savelyev özünün "məxfi arayış"ında erməni terror təşkilatlarıyla 366-cı alayın qoşun birləşmələrinin Dağlıq Qarabağda keçirdikləri hərbi əməliyyatları izləyərək real faktları sənədlərdə belə etiraf etmişdi: "Mən bütün bunları yazmaya bilmərəm. İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin güllədən keçmiş bədənlərini unuda bilmərəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Təkcə yazdığım arayışı həm Kremlə, həm də SSRİ Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinin generallarına göndərdim. Oxuyun, dedim. Görün biz rusların zabit şərəfi necə ləkələndi."

Bundan sonra bu yüksəkçinli zabit həmin "məxfi arayış"a 366-cı motoatıcı alayın komandiri Zaviqorov Yuri Yuriyeviç də daxil olmaqla 55 rus hərbçisinin adı olan siyahını da əlavə edib. Digər məlumatlarda da göstərilir ki, 366-cı alayın hərbi qulluqçuları azərbaycanlıların yaşayış məntəqəsinə bir top atəşinə görə ermənilərdən 1300 rubl, BTR-in bir gecəlik icarəsinə 5000 rubl, altı PDM-dən ibarət qrupun hər reydi üçün 1,5 milyon rubl, kiçikrütbəli zabitlərin təlimatlarının göstərişlərinə 3-4 min rubl alırdılar. Çoxlu pul verdiklərinə görə 366-cı alaydakı hərbi texnika və silahların 85 faizi ermənilərin əlinə keçmişdi. Üstəlik, Fransadan göndərilən 142 avtomat, 7 min 600 ədəd güllə, 460 ədəd bronijilet, 11 ton konservləşdirilmiş yemək, min iki yüz cüt ayaqqabı, 146 ədəd tapança ermənilərin istifadəsinə verilmişdi. Amerika istehsalı olan 149 ədəd rabitə vasitəsi Xocalıya hücumdan əvvəl erməni silahlılarına paylanmışdı. Məhz elə yüksək hazırlığa görə qəsbkarlar qısa müddət ərzində şəhəri işğal etmişdilər.

Ermənilər özlərini müdafiə etmək üçün həmişə həyasızcasına bildirirlər ki, guya onlar dinc əhalinin şəhərdən təhlükəsiz şəraitdə çıxmaları üçün yol qoymuşdular. Əsl həqiqətdə isə sakinlərin Xocalıdan sağ-salamat çıxmaları üçün dəhliz açılmamışdı. Ermənilərin dedikləri "dəhliz" sakinlər üçün dəhliz yox, əslində bir tələ olmuşdu. 60 nəfərdən bu barədə soruşulanda onlardan yalnız biri deyib ki, dəhliz barədə əvvəldən məlumatı var imiş. Amma camaat sağ qalmaq üçün həmin yerə yaxınlaşanda ermənilər tərəfindən atəşə tutulmuş, vəhşicəsinə öldürülmüşdü.

1994-cü il fevral ayının 24-də Milli Məclisin qərarı ilə fevralın 26-sının "Xocalı soyqırımı günü" kimi qeyd olunması və bu barədə beynəlxalq təşkilatlara məlumat verilməsi ilə Xocalı soyqırımına ilk dəfə siyasi qiymət verilmiş oldu. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə əsrin bu böyük faciəsi dövlət tərəfindən qiymətini aldı. 1995-ci il fevralın 24-də Milli Məclis dünya parlamentlərinə və beynəlxalq təşkilatlara Xocalı soyqırımı ilə bağlı müraciət etdi.

Xocalı faciəsinin dünyada tanıtdırılması, ermənilərin ifşa edilməsi üçün Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə uzun illərdir "Xocalıya ədalət!" kampaniyası aparılır. Bu məqsədlə Xocalı faciəsindən bəhs edən kitablar ingilis, fransız, rus və dünyanın başqa dillərinə tərcümə edilir, sənədli filmlər çəkilib xarici ölkələrin ictimaiyyətinə təqdim olunur. Aparılan uğurlu işlər müsbət nəticə verir. Pakistan, Meksika, Kolumbiya, Çexiya, Bosniya və Herseqovina, Peru, Honduras, ABŞ-nin 13 ştatı və başqa ölkələr Xocalı soyqırımını tanıyıblar. Dünya görür ki, Xocalı faciəsi ermənilərin və erməniçiliyin Azərbaycan xalqına qarşı sistemli soyqırımı siyasətinin bariz ifadəsi olmaqla yanaşı, beynəlxalq terrorizmin ən qəddar örnəklərindən biri, insanlığa qarşı indiyəcən törədilmiş cinayətlərin ən dəhşətlisi və ağrılısıdır.

Xalqımızın əli silah tutan vətənpərvər oğulları Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə düşmən üzərində Qələbə çalmağa hazır idi. Vətənin müdafiəsini və işğal altında olan torpaqlarımızın azad olunmasını hamı özünün vətəndaşlıq borcu hesab edirdi. Oğullarımız Vətən qarşısındakı borcunu şərəflə yerinə yetirməyə hazır idi. Onlar bunu Vətən müharibəsində bir daha göstərdilər.

Xocalı soyqırımının günahkarları, təşkilatçıları və icraçıları başda Ermənistanın keçmiş prezidentləri Robert Koçaryan, Serj Sarkisyan və başqaları layiqli cəzalarına çatacaqlar. Belə böyük və dəhşətli bir cinayət cəzasız qala bilməz. İnanırıq ki, yaxın vaxtlarda bu qanlı faciəni törədənlər layiqli cəzalarına çatacaqlar. Onda şəhidlərin ruhu şad olacaq.

İllər keçdikcə dünya ermənilərin sifətini tanıyır, yalanlarına inanmır. Çünki zaman ötüb arxada qaldıqca deyilənlərin və yazılanların yalan olduğunu görürlər. Gec-tez mütləq ədalət zəfər çalacaq. Yazdıqlarımıza sübut kimi qeyd edək ki, 2019-cu ildə Amerika Birləşmiş Ştatlarının Minnesota ştatının qubernatoru Tim Voiz fevralın 26-sının Azərbaycan Günü elan olunması ilə bağlı bəyanat imzalayıb. Onu da xatırladaq ki, bu ştatın Nümayəndələr Palatası Xocalı soqırımının 24-cü ildönümü ilə əlaqədar qətnamə qəbul etmişdi. Göründüyü kimi, hər şeyə hakim olan zaman yavaş-yavaş bir çox erməni saxtakarlığının üstündən qalın pərdəni götürür. Ondan sonra həqiqət açıq-aydın görünür.

Xocalı sıyqırımının baş verməsinin səbəblərindən biri də həmin dövrdə ordumuzun bugünkü kimi güclü və qüdrətli olmaması idi. Əgər o günlərdə ordumuz güclü, qüdrətli olsaydı, təbiidir ki, belə dəhşətli faciə də baş verməzdi.

Ümummilli Lider Heydər Əliyevin və Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin həyata keçirdiyi uğurlu islahatlar nəticəsində bu gün ordumuz dünyanın inkişaf etmiş ölkələrinin orduları ilə yanaşı addımlayır.



Dünya ictimaiyyəti Azərbaycan Ordusunun güc və qüdrətini İkinci Qarabağ müharibəsində aydın şəkildə gördü. 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlanan Vətən müharibəsində zabit və əsgərlərimiz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük qəhrəmanlıq göstərdilər. Hərbçilərimizin göstərdiyi bu igidlik sayəsində iyirmi səkkiz ildən çox davam edən erməni işğalına son qoyuldu. Torpaqlarımız, şəhər və kəndlərimiz erməni işğalından azad olundu. Ermənistan ordusu darmadağın olundu. Vətən müharibəsində Xocalı şəhərinin on səkkiz kəndi də erməni işğalçılarından azad edildi. Çox qürurverici haldır ki, bu gün üçrəngli bayrağımız Xocalı şəhərinin ərazisində dalğalanır.

İkinci Qarabağ müharibəsi zamanı Xocalı faciəsində iştirak etmiş bir neçə erməni öldürüldü. Faciədə əli xalqımızın qanına batmış ermənilərdən biri isə Şuşa şəhəri azad olunanda həbs edildi. İnanırıq ki, Xocalı faciəsində şəhər sakinlərini qətlə yetirmiş erməni cəlladlarının hamısı gec-tez layiqli cəzalarını alacaqlar.

*Vahid MƏHƏRRƏMOV*

İŞİMİZ, GÜZƏRANIMIZ

# Azərbaycan-İtaliya iqtisadi əməkdaşlığı - daim öndə

## Prezident İlham ƏLİYEV: "Ən vacib saydığımız layihələri məhz İtaliya şirkətlərinə həvalə etmişik"

Azərbaycan-İtaliya iqtisadi əməkdaşlığı getdikcə daha çox sahələri əhatə edərək ildən-ilə genişlənir və möhkəmlənir. İtaliya ölkəmizin əsas ticarət tərəfdaşlarından biridir. Uzun müddətdir Azərbaycan neftinin böyük hissəsi həmin ölkəyə ixrac olunur. Son illər 3500 kilometrlik "Cənub qaz dəhlizi" Xəzərdən Adriatik dənizinin sahillərinədək uzanaraq iki ölkə arasında dostluq və əməkdaşlığın daha bir rəmzinə çevrilib. İndi çoxtərəfli əlaqələrin yeni səhifələri yazılır - elektrik enerjisi sahəsində geniş əməkdaşlığa başlanıb.





Azərbaycanda 1280 MVt gücündə ən böyük istilik-elektrik stansiyasının tikintisində İtaliya şirkəti də iştirak edir. Obyektin təməlqoyma mərasimində Prezident İlham Əliyev bu barədə belə demişdir: "Bu stansiyanı biz xarici tərəfdaşlarla birlikdə inşa edəcəyik. Bugünkü mərasimdə İtaliyanın şirkətlər və "Made in Italy" naziri iştirak edir… "Azərenerji" ilə İtaliyanın "Ansaldo" şirkəti arasındakı əlaqələr burada həlledici rol oynayır. Bildirməliyəm ki, "Azərenerji" ilə "Ansaldo" arasında müqavilələr İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra imzalanmışdır. Azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda bu gün böyük quruculuq-bərpa işləri getdiyi bir dövrdə, ilk növbədə, o bölgənin enerji potensialı araşdırılır və bu istiqamətdə də "Ansaldo" və "Azərenerji" tərəfdaşlıq çərçivəsində fəaliyyət göstərirlər. İtaliya şirkətinin bu stansiyanın inşasında iştirakı təsadüfi deyil. İtaliya bizim strateji tərəfdaşımızdır. İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır, yüksəksəviyyəli qarşılıqlı səfərlər təşkil edilmişdir. Bu ilin yanvar ayından başlayaraq İtaliyanın yeni hökumətinin üç naziri artıq Azərbaycana səfərlər etmişlər - müdafiə naziri, energetika naziri və bu gün şirkətlər və "Made in Italy" naziri. Cəmi bir ay ərzində, - yəni birinci səfər yanvarın 11-də olmuşdur, - yeni hökumətin 3 naziri Azərbaycanda səfərdə olub. Bu, bizim əlaqələrimizin, doğrudan da, nə qədər yüksək səviyyədə olmasından xəbər verir. Əlbəttə, bütövlükdə energetika sahəsində əməkdaşlıq ənənəvidir".

Dövlətimizin başçısı təməlqoyma mərasimində iştirak edən İtaliya Respublikasının şirkətlər və "Made in Italy" naziri Adolfo Ursonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən də bu məsələləri vurğulamışdır: "İtaliya-Azərbaycan əlaqələri o qədər dərin və səmimidir ki, biz özümüz üçün ən vacib saydığımız layihələri məhz İtaliya şirkətlərinə həvalə etmişik".

Nazir Adolfo Urso isə "Ansaldo" və "Azərenerji" arasında qurulan tərəfdaşlığı tarixi hadisə adlandırıb.

Ümumiyyətlə, bu günlər həmin məsələ İtaliyada aidiyyəti qurumlarda müzakirə və təhlil edilməkdədir, yəni rəğbətlə qarşılanıb. İtaliyalı mütəxəssislər "Ansaldo Energia" şirkətinin Mingəçevir şəhərində İES-in tikintisində iştirakını yüksək qiymətləndirirlər. İtaliya Metal İşçiləri Federasiyasının baş katibi Kristian Venzano və federasiyanın şirkət üzrə meneceri Andrea Kapoqreso qeyd ediblər ki, Azərbaycandan alınan sifarişlər, şübhəsiz ki, "Ansaldo Energia"nın mükəmməlliyini təsdiqləyən müsbət əlamətdir. Hökumət hər mənada şirkətə diqqət yetirməli, həmçinin keçid üçün milli enerji planını sürətləndirməlidir. "Ansaldo" bu mərhələdə tamamilə mərkəzi rol oynamalıdır və biznes planı üzrə konkret addımlar atılmalıdır. Şirkət enerji keçidində hökumət üçün strateji olmalıdır və onlar hökumətin bu yolda davam edəcəyini gözləyirlər.

Həmin federasiyanın metal və maşınqayırma sənayesi işçilərini təmsil edən həmkarlar ittifaqının üzvü Roberto D'Andrea və ittifaqın Genuya üzrə baş katibi Stefano Bonazzi isə bildiriblər ki, "Ansaldo Energia" ilə "Azərenerji" arasında müqavilənin imzalanması Genuya zavodu üçün vacib sifarişi təsdiqləyən müsbət əlamətdir. Qeyd edək ki, "Azərenerji" ilə "Ansaldo Energia"nın imzaladığı dəyəri 160 milyon avro olan müqavilə çərçivəsində İtaliya şirkəti 1280 meqavat gücündəki yeni elektrik stansiyasını 4 qaz turbini ilə təchiz edəcək.

"Ansaldo Energia"nın beynəlxalq və ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri Stefano Santinelli şirkətin İtaliya üçün strateji ölkə olan Azərbaycanın enerji sektorunun inkişafına öz töhfəsini verməkdən məmnun olduğunu deyib: "Biz Azərbaycanda mühüm biznes imkanlarını müəyyən etmişik. Buna görə də "Ansaldo Energia" Azərbaycanın enerji sektorunun inkişafına töhfə vermək üçün öz filialını açmaq niyyətindədir". O həmçinin bildirib ki, bu, əməkdaşlığın gələcək inkişafı üçün ilk addımdır. "Ansaldo Energia" Azərbaycanda həm təbii qaz, həm də bərpaolunan enerji sektorlarında əməkdaşlıqda maraqlıdır.

"Azərbaycanla qurulan əməkdaşlıq "Ansaldo Energia" şirkətinin inkişaf edən yeni bazarlara yönəlməsinə şərait yaradacaq". Bunu isə İtaliyanın Liquriya regionunun iqtisadi inkişaf üzrə müşaviri Andrea Benveduti deyib.

İtaliyanın Liquriya regionunun prezidenti Covanni Toti "Ansaldo Energia"nın Azərbaycanı qaz turbinləri ilə təchiz etməsini şirkətin irəliyə doğru inkişafı üçün mühüm addım adlandırıb.

Bu ay keçirilən 59-cu Münhen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasında səfərdə olarkən Prezident İlham Əliyev orada İtaliyanın "Leonardo" şirkətinin baş icraçı direktoru Alessandro Profumo ilə görüşüb. Bu görüşdə toxunulan məsələlər Azərbaycan-İtaliya tərəfdaşlığının getdikcə daha da möhkəmləcəyini, iqtisadi münasibətlərin daha çox sahəsini əhatə edəcəyini göstərir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Mərkəzi Bankda sığorta şirkətlərinin rəhbərləri ilə görüş olub

**Bu barədə Mərkəzi Bankın sədri Taleh Kazımov tviter səhifəsində yazıb. Onun sözlərinə görə, görüşdə son makroiqtisadi meyillər və proqnozlara dair təqdimat keçirilib.**

Təqdimat zamanı qlobal makroiqtisadi proseslər, inflyasiya, faiz dəhlizinin parametrlərinin pul bazarına təsiri, valyuta bazarı, eyni zamanda son qlobal iqtisadi meyillərin maliyyə sektoruna təsirləri və digər aktual məsələlər müzakirə edilib. Trend-in məlumatına görə, görüşdə sektorun inkişaf məsələləri, qarşıda duran başlıca strateji vəzifələr, həmçinin sığorta sahəsində istehlakçıların hüquqlarının qorunması vəziyyəti, onun gücləndirilməsi istiqamətləri barədə müzakirələr aparılıb.

## İnsan alveri qurbanlarına sosial-reabilitasiya xidmətləri göstərilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin İnsan Alveri Qurbanlarına Yardım Mərkəzi məlumat açıqlayıb.**

Açıqlamada bildirilir ki, mərkəz ötən il 52-si insan alveri qurbanı, 32-si potensial insan alveri qurbanı (insan alveri təhlükəsi ilə üzləşmək riski olan şəxslər) olan 84 nəfəri sosial reabilitasiya xidmətləri ilə təmin edib.

Mərkəzin sosial işçi, psixoloq və hüquq məsləhətçisindən ibarət işçi heyəti tərəfindən bu kateqoriyadan olan şəxslərin hər biri ilə bağlı fərdi sosial reabilitasiya planı tərtib edilir və həyata keçirilir. Onların sosial-hüquqi, sosial-psixoloji dəstəklə təminatı, tibbi-sosial reabilitasiyası, məşğulluğunun təmin edilməsi sahəsində işlər aparılır.

Hazırda isə 8 nəfəri insan alveri qurbanı, 2 nəfəri isə potensial insan alveri qurbanı olan 10 zərərçəkmiş şəxsə xidmətlər davam edir.

## Dünya birjalarında neft bahalaşıb

### Azərbaycan neftinin bir bareli 83,77 dollara satılır

**Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,95 dollar artaraq 83,16 dollar olub.**

AZƏRTAC xəbər verir ki, Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,93 dollar bahalaşaraq 76,32 dollar təşkil edib.

"Azeri Light" markalı neft də bahalaşıb - 0,82 dollar. Bununla Azərbaycan neftnin bir barelinin qiyməti 83,77 dollar olub.

Xatırladaq ki, Azərbaycan neftinin bir barelinin ötən il ərzində maksimum qiyməti martın 9-da (135,99 dollar) qeydə alınmışdı.

## "TİPx 8: Uğurlu gələcək üçün" konfransı keçirilib

### Tələbələr əmək bazarının tələbləri, müasir çağırışlar, təhsil imkanları barədə məlumatlandırılıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin Mərkəzi Karyera filialı tərəfindən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında tələbələr üçün "Tələbə İnkişaf Platforması (TİP)" çərçivəsində növbəti "TİPx 8: Uğurlu gələcək üçün" konfransı keçirilib.



Tədris ilinin ikinci yarımilliyinin başlanması ilə əlaqədar keçirilən konfransda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin rəhbəri İnarə Vəliyeva, Təhsil Tələbə Krediti Fondunun İdarə Heyətinin sədri Araz Paşayev və Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov iştirak ediblər.

A.Kərimov gənclərlə, həmçinin tələbə və məzunlarla bağlı aktiv məşğulluq proqramlarını, gənclərin əmək bazarına hazırlanması istiqamətində görülən işləri diqqətə çatdırıb. Uğurlu karyeraya aparan yolun düzgün planlama, məqsədli və qərarlı fəaliyyətdən keçdiyini bildirən nazir müavini gənclərlə öz təcrübəsini bölüşüb.

Digər spikerlər "Rəqəmsal əsrdə gənclərin karyera imkanları", "Peşəkar səriştələrin inkişafının 5 mərhələsi", "Tələbələrin karyera qurmalarında universitetlərin rolu" kimi mövzularda çıxış ediblər.

Gənclərə əmək bazarının tələbləri, müasir çağırışlarla bağlı məlumat və tövsiyələr verilib. Konfrans sual-cavab sessiyası ilə başa çatıb.

Qeyd edək ki, "TİPx 8: Uğurlu gələcək üçün" konfransında müxtəlif universitetlərdən 250-yə yaxın tələbə iştirak edib.

Ümumilikdə, bu günədək platforma çərçivəsində keçirilən görüşlərə 1500-dən çox tələbə qatılıb. Məqsəd tələbələri təhsil imkanları barədə məlumatlandırmaq, onlara özünüinkişaf və karyera planlaması istiqamətində dəstək olmaqdır.

## Cari il də qeyri-neft-qaz sektorunun inkişafı prioritet olacaq

### Ötən ay bu sektora sərf edilən vəsait 2,5 dəfə artmışdır

Dövlət Statistika Komitəsi (DSK) cari ilin yanvar ayı üzrə makroiqtisadi göstəriciləri açıqlayıb. Məlum olub ki, ötən ay ölkə üzrə 9,7 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövründəkindən 1,5 faiz az ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. Əlavə dəyər istehsalı iqtisadiyyatın qeyri-neft-qaz sektorunda 1,7 faiz artmış, neft-qaz sektorunda 4,6 faiz azalmışdır.

DSK-nin hesabatına görə, ilin ilk ayında ÜDM-in 52,8 faizi sənaye, 9,5 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 5,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 2,6 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıq, 3,2 faizi tikinti, 1,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6 faizi informasiya və rabitə, 15,5 faizi digər sahələrdə istehsal olunmuşdur. Məhsula və idxala xalis vergilər ÜDM-in 8,1 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə isə 956,6 manat əlavə dəyər düşmüşdür.

Ay ərzində ölkə üzrə 6,5 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. Ümumilikdə bu dövrdə məhsul istehsalı sənayenin qeyri-neft-qaz sektorunda 2 faiz artmışdır. Sənaye məhsullarının 74,1 faizi mədənçıxarma, 20,5 faizi emal, 4,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,5 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir. Mədənçıxarma sektoru üzrə əmtəəlik neft hasilatı 6,9, əmtəəlik qaz hasilatı 1,3 faiz azalmışdır.

Emal sektorunda isə dəri, dəri məmulatlarının, ayaqqabıların istehsalı 2,9 dəfə, eləcə də ağacın emalı və ağacdan məmulatların istehsalı bir o qədər, maşın və avadanlıqların istehsalı 80,3, poliqrafiya məhsullarının istehsalı 75,6, kağız və karton istehsalı 44,9, kompüter, elektron və optik məhsulların istehsalı 44,6, elektrik avadanlıqlarının istehsalı 30,9, geyim istehsalı 25,4, içkilərin istehsalı 24,1, tikinti materiallarının istehsalı 20,7, toxuculuq sənayesi məhsulları istehsalı 17,5, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 7,9 faiz artmış, qida məhsulları istehsalı 0,1, rezin və plastik kütlə məmulatlarının istehsalı 2,6, tütün məmulatları istehsalı 4,2, neft məhsulları istehsalı 9, kimya sənayesi məhsullarının istehsalı 18,1, mebel istehsalı 18,6, digər nəqliyyat vasitələrinin istehsalı 23,5, hazır metal məmulatlarının istehsalı 24,5, metallurgiya sənayesi məhsullarının istehsalı 37,7, əczaçılıq məhsulları istehsalı 45,5, maşın və avadanlıqların quraşdırılması, təmiri işləri 49,8 faiz azalmışdır.

Artım həmçinin qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında qeydə alınmışdır - müvafiq olaraq 8,3 və 15,4 faiz.



Dövlət Statistika Komitəsinin açıqlamasına görə, cari ilin yanvar ayında əsas kapitala 1 milyard 91,7 milyon manat vəsait yönəldilmişdir. Bu, 2022-ci ilin ilk ayındakından 61,2 faiz çoxdur. İstifadə olunmuş ümumi vəsaitin 46,4 faizi məhsul istehsalı və 48,4 faizi xidmət obyektlərinin, 5,2 faizi yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 74,4 faizi daxili sərmayələr olan vəsaitin 77,3 faizi bilavasitə tikinti-quraşdırma işlərində xərclənmişdir. Bu dövrdə neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 8,8 faiz azalmış, qeyri neft-qaz sektoruna sərf edilən vəsait isə 2,5 dəfə artmışdır.

Sosial sahəyə, daha dəqiq desək, muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqına gəldikdə, Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkə üzrə 2022-ci il ərzində bu göstərici 2021-ci ilə nisbətən 14,7 faiz artaraq 839,4 manata çatmışdır. Əhalinin ümumi gəlirləri isə yanvar ayı ərzində 15 faiz artaraq 5,4 milyard manat olmuşdur.

DSK-nin hesabatında həmçinin bildirilir ki, keçən ay pərakəndə ticarət şəbəkəsindən əhaliyə 4 milyard 298 milyon manatlıq məhsul satılmış, 873,8 milyon manatlıq ödənişli xidmətlər göstərilmişdir. 2022-ci ilin ilk ayı ilə müqayisədə əmtəə dövriyyəsi 2,9, əhaliyə göstərilmiş xidmətlərdən əldə olunan gəlir 8,5 faiz artmışdır.

Yanvar ayının nəticələrinə əsasən, ölkənin informasiya və rabitə müəssisələri tərəfindən ümumilikdə 229,9 milyon manatlıq müxtəlif xidmətlər göstərilmiş və həmin xidmətlərin 72 faizindən əhali istifadə etmişdir. Ay ərzində bu xidmətlərin həcmi 17,2 faiz artmışdır. Əldə edilmiş gəlirlərin 83,3 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Nəqliyyat sektorunda da göstəricilər müsbətdir: ötən ay ölkə üzrə 17 milyon ton yük, 138,3 milyon nəfərdən çox sərnişin daşınmışdır ki, bu da 2022-ci ilin eyni dövrünə nisbətən yük daşınması üzrə 6,6, sərnişin daşınması üzrə 22,1 faiz çoxdur.

Sonda istehlak qiymətləri barədə: cari ilin yanvar ayında 2022-ci ilin eyni ayı ilə müqayisədə ümumilikdə qiymətlər 13,6, o cümlədən ərzaq məhsulları, içki və tütün məmulatları 17,5, qeyri-ərzaq malları 12,2, əhaliyə göstərilən ödənişli qiymətlər 9,7 faiz bahalaşmışdır.

***"Azərbaycan"***

## Yeni "Zəfər" yatağında qiymətli metalların ilkin həcmi açıqlanıb

**"Anglo Asian Mining" (AAM) şirkəti Gədəbəy rayonundakı yeni "Zəfər" yatağında qiymətli metalların ilkin həcmini açıqlayıb.**

Şirkətdən AZƏRTAC-a verilən məlumata görə, yataqda 28 min tonadək mis, 73 min unsiya qızıl və 36 min tonadək sink mövcuddur. Mövcud emal müəssisələrindən təqribən 850 metr məsafədə və minerallaşma müəssisəsindən 1000 metr aralıda iki tunelin inşası artıq başlanıb. Bundan başqa, ikiqat tunellərin, enerji və kompressor platformalarının, həmçinin avadanlıq yerləşdiriləcək ərazinin inşası üçün torpaq işləri tamamlanıb. Paralel olaraq ofis, emalatxana və ağır avadanlığa xidmət obyektlərinin yaradılması üzrə işlər davam edir.

Qeyd edək ki, bundan əvvəl şirkət "Gilar" yatağında 135 min unsiya qızıl, 21,5 min ton mis və 23 min ton sinkin olduğunu açıqlamışdı.

"Anglo Asian Mining" yaxın illərdə Azərbaycanda "Qaradağ", "Xarxar" və "Dəmirli" kimi müqavilə zonalarını istismara verməyi planlaşdırır. Şirkət işğaldan azad edilmiş ərazilərdə - Zəngilan rayonunda "Vejnəli" qızıl yatağının kəşfiyyatına artıq başlayıb. "Anglo Asian Mining" tərəfindən Azərbaycanda istehsal olunan qızıl külçələr əsasən İsveçrəyə, mis isə Gürcüstan, Özbəkistan və Türkiyəyə ixrac olunur.



# RİİB könüllüləri Xocalı soyqırımı qurbanlarının xatirəsini 613 ağac əkməklə yad ediblər

**Fevralın 25-də Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) və Bakı Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə ağacəkmə aksiyası keçirilib.**



AZƏRTAC xəbər verir ki, paytaxtın Nərimanov rayonunda təşkil edilən aksiyada Xocalı qətliamında həlak olmuş 613 nəfərin xatirəsini əbədiləşdirmək məqsədilə 613 ağac əkilib. Xocalı soyqırımı qurbanlarının xatirəsinin yad edilməsi, bu hadisələrin yaddaşlarda yaşadılması, xüsusən də gənc nəsil tərəfindən unudulmamasına yönəlmiş aksiyada könüllülər iştirak ediblər.

Aksiyada iştirak edən RİİB könüllüsü Əli Həsənəliyev bildirib ki, 31 il əvvəl Xocalıda törədilən faciənin qurbanlarının unudulmadığını, onların xatirəsinin dərin hüzn və ehtiramla yad edildiyini nümayiş etdirmək üçün o dəhşətli gecədə qətlə yetirilən hər bir soydaşımızın xatirəsinə bir ağac əkilib: "Əkdiyimiz ağaclar böyüdükcə, ərazilər yaşıllaşdıqca həmin ağacların hansı məqsədlə əkilməsi xatırlanacaq. Beləliklə bizdən sonrakı nəsillərə tariximizi məhz bu cür üsullarla xatırladacağıq. Vətən müharibəsində iştirak edə bilməsəm də şəhidlərimizin, qazilərimizin canı, qanı bahasına aldığı torpaqlarda keçirilən ağacəkmə aksiyalarına qoşulmaq ən böyük arzumdur. Xüsusilə də Xocalıda ağac əkməklə həm şəhidlərimizin, həm də faciə qurbanlarının ruhunu şad etmək istərdim".

Xatırladaq ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının iştirakı ilə həyata keçirilən Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i ahıl olmaqla 613 Xocalı sakini qətlə yetirilib.

Heydər Əliyev Fondu Xocalı həqiqətlərinin dünyaya çatdırılması istiqamətində silsilə tədbirlər reallaşdırır. 2008-ci ildən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyası həyata keçirilir. Kampaniyanın fəaliyyət istiqamətlərinə Xocalı soyqırımına dair həqiqətlərin beynəlxalq aləmdə tanıdılması, faciə qurbanlarının xatirəsinin yad edilməsi, bu hadisələrin yaddaşlarda həkk olunması, xüsusən də gənc nəslə ötürülməsi də daxildir.





OXUCULARIN NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


## Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

# Laçın-Xankəndi yolundakı ekoaksiya 77 gündür davam edir





**Qarabağ iqtisadi rayonunda yerləşən "Qızılbulaq" və "Dəmirli" yataqlarının istismarının dayandırılması və orada monitorinqlərin aparılmasına icazə verilməsini tələb edən azərbaycanlı ekofəalların Laçın-Xankəndi yolunda keçirdiyi ekoaksiya 77 gündür davam edir.**

Aksiya iştirakçıları ənənəyə sadiq qalaraq, bu səhəri də Dövlət himinin səsləndirilməsi ilə açıb, milli ruhda mahnılar ifa ediblər.

Aksiyanın məramı əvvəlki kimi dəyişməz olaraq qalır. Etirazçılar Azərbaycanın faydalı qazıntı yataqlarının erməni separatçıları tərəfindən qanunsuz istismarına yox deyir, bunun dərhal dayandırılmasını tələb edirlər. Aksiya fəalları bu dəqiqələrdə qaldırdıqları plakatlarda üzərində rus və ingilis dilində yazılmış "Sərvətlərimizin talanı dayansın!", "Təbiəti qoruyaq, istismarı qınayaq!", "Təbiətin milləti yoxdur!", "Azərbaycan milləti qoruyacaq sərvəti!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Sərvətimiz bölünməz, heç bir kəsə verilməz!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekocinayətə son!" kimi şüarlar səsləndirirlər. Gənc fəalların dinamik və olduqca coşqulu görünmələri onların tələblərində israrlı olduqlarını göstərir.

Ekofəallar Azərbaycan tərəfinin haqlı tələblərinin yerinə yetirilməsini istəyirlər. Bildirirlər ki, onların tələbləri Azərbaycan ictimaiyyətinin haqlı narazılığının ifadəsidir və vətəndaş cəmiyyətinin bu mövqeyinə hörmətlə yanaşılmalıdır. Aksiyanın keçirildiyi ərazi humanitar məqsədlər üçün açıqdır, sərbəst hərəkətə heç bir maneə yoxdur. Fevralın 24-də aksiyanın təşkil olunduğu Laçın-Xankəndi yolundan hər iki istiqamətə Rusiya sülhməramlılarına və Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus ümumilikdə 40 avtomobil maneəsiz keçid edib.

Sülhməramlılara məxsus dörd yanacaqdaşıyan avtomobil aksiya ərazisində sərbəst hərəkət edərək Xankəndiyə gedib, üç yük avtomobili isə Laçın istiqamətinə maneəsiz keçib.

* * *

Sülhməramlılara məxsus on doqquz yük, bir minik avtomobili aksiya ərazisindən sərbəst keçərək Laçına gedib.

* * *

Sülhməramlılara məxsus 14 yük, bir minik avtomobili aksiya ərazisindən sərbəst keçərək Xankəndiyə gedib. Bir minik avtomobili isə əks istiqamətə maneəsiz keçib.

* * *

Dünən də Rusiya sülhməramlılarına aid minik və yük avtomobillərinin azərbaycanlı ekofəalların Laçın-Xankəndi yolunda dinc məqsədlə təşkil etdikləri aksiya ərazisindən keçidinə şərait yaradılıb.

Sülhməramlılara məxsus iki yük avtomobili Xankəndiyə, bir təcili tibbi yardım və bir minik avtomobili isə Laçına gedib.

* * *

Sülhməramlılara məxsus 2 yük, 2 minik avtomobili olmaqla 4 avtomobil Xankəndidən gələrək Laçın istiqamətinə gedib.

Qeyd edək ki, bundan öncə Beynəlxalq Qırmızı Xaç Komitəsinə aid 5 avtomobil Xankəndidən Laçına gedib.

Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq, azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.













# Hərbi qulluqçuların xidməti yüksək səviyyədə aparmaları üçün hər cür şərait yaradılıb

**İşğaldan azad edilmiş ərazilərdə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən dislokasiya olunan bölmələrin hərtərəfli təminatı və sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlər davam etdirilir.**

AZƏRTAC Ağdam rayonu ərazisində dislokasiya olunan hərbi hissənin yerləşmə məntəqəsində Azərbaycan Ordusunun maddi-texniki təminatı, eləcə də hərbi qulluqçuların sosial-məişət şəraiti ilə tanış olub.







### Hərbçilərimiz hər zaman ayıq-sayıqdır

Hərbi hissənin yerləşmə məntəqəsində əsgər yataqxanası, zabitlər və gizirlər otağı, tibb məntəqəsi, yeməkxana, camaşırxana, mətbəx, silah otağı, hamam-sanitar qovşaq, qurutma otağı, ərzaq və əşya anbarları, həyətdə qazanxana və generator yaradılıb. Yerləşmə məntəqəsi lazımi inventar və avadanlıqlarla, mebel, yataq ilə təchiz edilib. Burada hərbi qulluqçuların xidməti yüksək səviyyədə aparmaları üçün hər cür şərait var. Bu da əsgərlərimizə Vətənimizin keşiyində hər zaman ayıq-sayıq durmağa, onu düşməndən layiqincə müdafiə etməyə imkan verir.

### "Şəhid və qazi ailələrinin bizim kimi Vətənə xidmət edən oğulları var"

İşğaldan azad olunmuş ərazilərdə xidmət keçməkdən fəxr etdiyini deyən əsgər Mehman Möhsümzadə Vətənin keşiyində dayanmağın həm məsuliyyətli, həm də qürurverici olduğunu bildirib: "Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət etməkdən qürur duyuram. Hərbi hissədə xidmət keçməyimiz üçün yüksək şərait yaradılıb. Hərbi qulluqçular ərzaq və əşya təminatı normalarına uyğun olaraq fasiləsiz təmin edilir. Ali təhsilli əsgər olaraq 8 aydır xidmət edirəm. Ailəm, dostlarım, yaxınlarım nigaran qalmasınlar. Buradan şəhid və qazi ailələrinə salam göndərirəm. Onların bizim kimi Vətənə xidmət edən oğulları var. Qarabağ Azərbaycandır!"

### Milli mətbəximizlə zəngin qida rasionu

Hərbi hissənin yerləşmə məntəqəsindəki əsgər yeməkxanası müasir səviyyədədir. Təmiz və işıqlı yeməkxanada hərbi qulluqçulara bol enerjili, ekoloji təmiz və qida rasionuna uyğun yeməklər verilir. Aşpaz Afət Bağırova bildirib ki, altı ildir əsgərlərimiz üçün milli xörəklər bişirir. "İşimlə qürurlanıram, əsgərlərimizlə fəxr edirəm. Şəxsi heyət üçün nəzərdə tutulmuş qida rasionu zəngindir. Demək olar ki, əsgərlərə milli mətbəximizin bir çox yeməyi verilir. Gündə üç dəfə əsgərlərimiz üçün yemək bişirilir. Menyuda milli mətbəximiz üstünlük təşkil edir. Analara demək istəyirəm ki, arxayın olsunlar, övladları etibarlı əllərdədir. Bu gün günorta yeməyi üçün mərci şorbası və toyuq əti ilə plov bişirmişik", - deyə Afət Bağırova bildirib.

### "Ad günüm maraqlı keçdi"

Hərbi hissənin yerləşmə məntəqəsində olarkən əsgərlərdən birinin - Əli Novruzovun doğum günü qeyd edilirdi. Əsgərə doğum günü və nümunəvi xidməti münasibətilə müdafiə nazirinin hədiyyəsi verildi, birgə nahar zamanı tort kəsildi. Uşaq evində böyüyən Əli Novruzov 11 aydır işğaldan azad olunmuş ərazilərdə, ehtiyatda olan bölmələrin birində xidmət edir. Vətənə xidmətdən qürur hissi keçirdiyini söyləyən əsgər deyib: "Bu gün doğum günümdür, 19 yaşım olur. Kollektivlə ad günümü qeyd etdik. Fərqli keçdi, maraqlı oldu. Çox sevindim. Hər kəsə təşəkkürümü bildirirəm".

### Azərbaycan əsgəri döyüşə hər zaman hazırdır

Sonra döyüş hazırlığı məşğələləri ilə tanış olduq. Əsgərlər rabitə hazırlığı, mühəndis-istehkam hazırlığı, atəş hazırlığı və artilleriya üzrə təlim nöqtələrində peşəkarlıq səviyyəsini, döyüşə hazırolma vərdişlərini təkmilləşdirirdilər.

Dərs prosesindən danışan kapitan Əli Nağıyev bildirib ki, 1 nömrəli təlim nöqtəsində döyüş mövqelərində xidmət edən əsgərlərə əsas atıcı silahlar tədris edilir. Məqsəd şəxsi heyətin silahlar haqqında nəzəri biliklərini, praktiki vərdişlərini artırmaq, atəş hazırlığı, taktiki hazırlıq kimi normativləri aşılamaq və onların döyüş hazırlığını yüksəltməkdir.

Üç nömrəli təlim nöqtəsinin rəhbəri Orxan Mahmudov isə əsgərlərə piyada və tank əleyhinə minalar haqqında məlumat verirdi.

### "Vətənimizin keşiyində yorulmadan dayanmışıq"

Səfər zamanı döyüş mövqeyində xidmət aparan əsgərlərlə də həmsöhbət olduq. Atıcı əsgər Mənaf Quliyev işğaldan azad edilmiş torpaqlarda xidmət etdiyi üçün qürur duyduğunu bildirib: "Azərbaycan Respublikasının ərazi bütövlüyünü qorumaq borcumuzdur və biz Vətənimizin keşiyində yorulmadan dayanmışıq. Qarabağ Azərbaycandır!"


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5086
Sifariş 473

Qiyməti 40 qəpik